www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 dekabr 2017-ci il Cümə № 263 (6876) Qiyməti 60 qəpik

**Xəbər**

**Şəhid qızını öldürən biznesmen oğlu həbsdən buraxıldı - təfərrüat**

yazısı səh.4-də

**Gündəm**

**Prezidentin icra başçılarına verdiyi vaxt bu gün bitdi**



İşdən çıxarılan üç məmurun siyahısına kimlər əlavə olunacaq?

yazısı səh.7-də

**Putin 13-cü mətbuat konfransında nələr danışdı?**

yazısı səh.3-də

**Şeyxin qudasının oğluna 4 il iş istədilər**

yazısı səh.5-də

**Azərbaycanda ölünü necə "dirildəcəklər" - tibb professoru danışır**

yazısı səh.10-da

**Kollec tələbəsi ürəyindən bıçaqlanaraq öldürüldü**

yazısı səh.14-də

**ABŞ gözlənilən dollar qərarını verdi - Bakıda sakitlikdir**

yazısı səh.10-da

**İraqda kimsəsiz qalan 20 azərbaycanlı uşağın gözü yolda**

yazısı səh.11-də

**Ermənistanın Sürix protokolundan imtinasının pərdəarxası**

yazısı səh.9-da

**Avropa Məhkəməsinin köçkünlərlə bağlı qərarına deputatlardan sərt etiraz**

yazısı səh.11-də

**İsrailə qarşı "3-cü intifada" elan olundu**

yazısı səh.13-də

**Fikrət Qocanın oğlunu öldürən şəxslərə hökm oxundu**

yazısı səh.2-də

# ARTUR RƏSİ-ZADƏNİN 2017-Cİ İL "QURTULUŞU"NUN SİRRİ

Baş nazirin bütün iddialara rəğmən vəzifədə qalması onun özünə bağlı məsələ deyil, sadəcə, zamanını gözləməyə məcburdur; gözlənilir ki, seçki ilində çox əhəmiyyətli vəzifələr gənc kadrlara həvalə olunacaq




yazısı səh.7-də

## "Daşkəsən Filizsaflaşdırma"nı özəlləşdirməyə qoymayan gizli əllər

Müəssisənin yavaş-yavaş sökülərək, onun materiallarından ətraf rayonlarda ticarət mərkəzlərinin tikintisində istifadə olunduğu, bəzi hallarda qiymətli metalların qanunsuz yollarla satıldığı deyilir

yazısı səh.4-də



**Fazil Məmmədov ətrafında müəmma - "yeznəsi ölkədən 10 milyonla qaçıb" iddiası**

yazısı səh.5-də




**MSK üzvü Seçki Məcəlləsinə təklif olunan dəyişikliyə qarşı çıxdı**

yazısı səh.6-da



**Azərbaycan Trampın gizli dəftərində - dekabrın 18-də açıqlayacaq**

yazısı səh.9-da



## Ordumuz şəhid verdi

**Azərbaycan ordusu şəhid verib. Müdafiə Nazirliyindən lent.az-a verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu Salahov Füzuli Süleyman oğlu şəhid olub.**

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyir.

## Saakaşvili Odessa şəhərinin meri olmaq istəyir

**Gürcüstanın sabiq prezidenti və Odessa vilayətinin keçmiş qubernatoru Mixeil Saakaşvili Odessa şəhərinin meri olmaq istədiyini bildirib. "Report" xəbər verir ki, o, bu barədə Ukraynanın "24 kanal"ının efirində bildirib.**

"Odessa şəhərinin meri olmaq istəyirəm. Zarafat etmirəm, həqiqəti deyirəm. Odessanı dirçəltməyi çox istəyirəm. Ancaq Odessanı bütün oyun qaydalarını dəyişməklə dirçəltmək olar", - M.Saakaşvili deyib.

Eyni zamanda o, yaxşı baş nazir olacağı təqdirdə və bu vəzifədə fəaliyyətini başa vurduqdan sonra Odessaya getməyə hazır olduğunu bildirib.

Siyasətçi komandasının Ukraynada 70 gün ərzində islahatlar edə biləcək, dövlət aparatının isə üçdə iki hissəsini ixtisar etməklə bağlı plana malik olduğunu qeyd edib.

O, həmçinin növbəti dəfə prezident seçilmək ambisiyalarının olmadığını vurğulayıb: "Müəyyən səbəblərə görə prezident ola bilmərəm. Həmçinin uzun müddət Ukrayna siyasətində qala bilmərəm. Çünki yenidən bu ətalətə qarışmaq istəmirəm. Mənə daha yaxşı gələcək üçün sıçrayış lazımdır.

Sonradan Ukraynada adi vətəndaş kimi qalardım".

## Bakıda içində 100 min pul olan seyfi oğurlayan şəxslər tutuldu

**Daxili işlər orqanlarının əməkdaşları tərəfindən mülkiyyət əleyhinə olan cinayətlərlə mübarizə sahəsində növbəti əməliyyat keçirilib. DİN-in mətbuat xidmətindən lent.az-a verilən məlumata görə, dekabrın 13-də Bakı şəhər sakini İlqar Həziyev Xəzər Rayon Polis İdarəsi 2-ci Polis Bölməsinə məlumat verərək Albalılıq yeni yaşayış sahəsində yerləşən fərdi yaşayış evinin dəmir barmaqlıqlarının qırıldığını və mənzildən içərisində 100000 manat olan seyfin oğurlandığını bildirib.**

Bakı Şəhər Baş Polis İdarəsi və Xəzər RPİ əməkdaşları tərəfindən isti izlərlə və peşəkarlıqla keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində qeyd edilən cinayətin Xəzər rayon sakinləri Bayram Əsgərov və Heydərəli Hacıyev tərəfindən törədildiyi müəyyən edilib. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxslər saxlanılaraq istintaqa təhvil veriliblər. Qeyd edək ki, cinayəti törətməkdə şübhəli bilinən şəxslərin üzərlərindən və yaşadıqları evlərdən oğurladıqları pullar aşkar olunaraq maddi sübut kimi götürülüb.

Qeyd edilən faktla bağlı Xəzər RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Müxalif blok prezidentliyə namizəd seçdi

**Ermənistan parlamentindəki müxalif "Çıxış" bloku prezidentliyə namizədini müəyyənləşdirib. Novator.az-n məlumatına görə, blok seçkiyə Artak Zeynalyanın namizədliyi ilə gedir. Artak Zeynalyan 1969-cu ildə İrəvanda anadan olub. Ermənistan Tibb Universitetini, Milli Səhiyyə İnstitutunu, Ermənistan İdarəçilik Akademiyasını, Qladzor İdarəçilik Universitetini bitirib. Cərrahdır.**

1998-2001-ci illərdə səhiyyə nazirinin müavini olub. Bəzi hüquq müdafiə təşkilatlarında çalışıb.

2018-ci ildə Serj Sərkisyanın prezident səlahiyyətləri başa çatandan sonra Ermənistanda icra hakimiyyəti və dövlət idarəçiliyi sisteminə ümumi rəhbərliyi hökumət həyata keçirəcək. Yalnız dövlət başçısı funksiyasını daşıyacaq prezidenti isə parlament seçəcək.

"Çıxış" blokunu müxalif İşıqlı Ermənistan, Vətəndaş Sazişi, Respublika partiyaları qurub. Blokun 9 deputatı var. Onlardan biri Artak Zeynalyandır. Artak Zeynalyan Respublika Partiyasının üzvüdür.

# Fikrət Qocanın oğlunu öldürən şəxslərə hökm oxundu

**Dekabrın 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq şairi Fikrət Qocanın oğlu Yalçın Qocayevi qətlə yetirməkdə təqsirləndirilən Elnur Nəhmədov, Pərviz Hüseynov və Ruslan Məmmədovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**



Müsavat. com xəbər verir ki, hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

E.Nəhmədov 5 il, R.Məmmədovun 2,5 il, P.Hüseynov 2 il müddətinə azadlıqdan məhrum edilib.

Hökmə əsasən, E.Nehmətovun ittiham olunduğu Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi 124-cü (ehtiyatsızlıqdan adam öldürmə) maddəsinə tövsif edilib.

Xatırladaq ki, dövlət ittihamçısı çıxışında E.Nəhmədovun 19 il, R.Məmmədovun 4 il, P.Hüseynovun 3 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Daxili İşlər Nazirliyinin rəsmi məlumatına görə, bu il martın 11-də gecə saat 2 radələrində Vətən Müharibəsi Veteranlar Birliyinin Nəsimi rayonu, M.Cəlal küçəsində yerləşən rayon şöbəsinin inzibati binasında Ruslan adlı şəxs oranın üzvü, Bakı şəhər sakini Yalçın Qocayevə baş nahiyəsindən küt alətlə xəsarət yetirib. Y.Qocayev hadisə yerində ölüb.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.

Polis və prokurorluq orqanları əməkdaşlarının keçirdikləri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində Y.Qocayevin tanışları - Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş Ruslan Məmmədov, Sabirabad rayon sakini Elnur Nəhmədov, Bakı şəhər sakini Pərviz Hüseynovla aralarında baş verən mübahisə zəminində E.Nəhmədov tərəfindən döyülərək öldürülməsi müəyyən edilib.

Görülmüş tədbirlərlə hər üç şəxs tutulub.

## Azərbaycan qızıl istehsalını 3 dəfə artırıb

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda 5 669 kq qızıl istehsal edilib.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, bu, 2016-cı ilin 11 ayı ilə müqayisədə 3,2 dəfə çoxdur. Nəticədə bu ilin dekabrın 1-nə 63,5 kq hazır məhsul ehtiyatı yaranıb.

Bu ilin 11 ayı ərzində ölkədə 566,8 kq gümüş istehsal edilib ki, bu da ötən ilin 11 ayı ilə müqayisədə 67,9% çoxdur. Nəticədə bu ilin dekabrın 1-nə 73,5 kq hazır məhsul ehtiyatı yaranıb.

## Bu gün çiskin olacaq

**Dekabrın 15-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən buludlu olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən lent.az-a verilən məlumata görə, gecə və səhər bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-7, gündüz 9-12, Bakıda gecə 5-7, gündüz 10-12° isti olacaq.**

Sabah Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz, lakin gecə və axşam bəzi şərq rayonlarında çiskinli olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-7, gündüz 8-13° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 4-9° isti təşkil edəcək.



## BQXK nümayəndələri Dilqəm Əsgərov və Şahbaz Quliyevlə görüşüb

**Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri (BQXK) Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərlə görüşüblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, təmsil etdiyi qurumun nümayəndələri dekabr ayı ərzində Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan azərbaycanlılara bir daha baş çəkib:**

"Biz münaqişə nəticəsində saxlanılan şəxslərə mütəmadi baş çəkməkdə davam edirik. Mandatına uyğun olaraq BQXK saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraiti və onlarla rəftarı monitorinq etsin, həmçinin saxlanılan şəxslərə ailələri ilə əlaqə saxlamalarına şərait yaratsın".

Qeyd edək ki, hazırda Dağlıq Qarabağda üç azərbaycanlı saxlanılır.

2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib.

Azərbaycan vətəndaşı Elnur Hüseynzadə isə bu ilin fevralında Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.



## Məleykə Abbaszadə məktəb təhsilini tənqid etdi

**"9-cu sinfin buraxılış imtahanlarından sonra təxminən 30% şagird tədris prosesindən ayrılıb, 10-cu sinfə keçmir".**

APA-nın xəbərinə görə, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Sumqayıtda təhsil işçiləri, müəllim və valideynlərlə yeni qəbul qaydaları ilə bağlı görüşdə deyib.

O bildirib ki, müxtəlif parametrlərə görə Sumqayıtın nəticələri həmişə Bakının nəticələrindən yaxşı olub: "Bu il də Sumqayıtda XI sinfin buraxılış imtahanlarının nəticələri yüksəkdir, nəinki Bakının. Baxmayaraq ki, Sumqayıtda 3000-ə yaxın, Bakıda isə 20 minə yaxın məzun var".

Azərbaycanda icbari təhsilin 9 illik olduğunu xatırladan M. Abbaszadənin sözlərinə görə, DİM 14 və 15 dekabrda 38 şəhər və rayonun ümumtəhsil müəssisələrinin 6-cı siniflərində təhsil alan şagirdlər üçün Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən monitorinq imtahanı keçirəcək. DİM sədri əlavə edib ki, monitorinq imtahanları dövlət vəsaiti hesabına təşkil olunacaq.

"XI sinfin buraxılış imtahanlarının nəticəsi təkcə məktəbin nəticəsi deyil, çünki şagirdlər məktəbdən əlavə hazırlaşırlar. Buna görə də IX və XI sinfin buraxılış imtahanlarında fərqi görürük", - deyə Direktorlar Şurasının sədri vurğulayıb.

## "Rabitə işi" ilə bağlı daha bir bəraət tələbi

**"Rabitə işi" üzrə daha bir vəzifəli şəxs Ali Məhkəməyə üz tutub. Lent.az-ın məlumatına görə, Aztelekom MMC-nin baş mühasibi olmuş Oktay Rüstəmov Bakı Apelyasiya Məhkəməsinin qərarından kasasiya şikayəti verib.**

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə şərti cəza alan Oktay Rüstəmov barəsində bəraət hökmünün çıxarılmasını istəyib. O, həmçinin özünün və ailə üzvlərinin adına olan mülklərin üzərinə qoyulmuş həbsin götürülməsini tələb edib. Bakı Apelyasiya Məhkəməsindən həmçinin bildiriblər ki, bundan əlavə, Vidadi Zeynalov və Beytulla Hüseynovun şikayəti icraata qəbul edilib. Digər təqsirləndirilən şəxslərin də şikayəti qəbul ediləndən sonra məhkəmə şikayətlərə baxılması barədə günü müəyyən edəcək. Hazırda iş Ali Məhkəmədə Əli Seyfəliyevin icraatındadır.

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

**Dekabrın 14-də Rusiya prezidenti Vladimir Putin Moskvada 13-cü illik mətbuat konfransı keçirib. 1700-dən çox mətbuat nümayəndəsinin iştirak etdiyi, dünyanın diqqətlə izlədiyi konfransda Kreml rəhbəri ölkəsi və şəxsi barəsində gedən müzakirələrin hər birinə ayrı-ayrılıqda münasibət bildirib.**

# Putin mətbuat konfransında bütün budaqları silkələdi

## Rusiya prezidenti Saakaşvili haqda: “Bu mənzərəyə baxmaq təəssüf yaradır, ürəyim qana dönür”



**Putinin son bir ildə Amerika prezidenti Donald Trampın necə bir dövlət başçısı kimi fəaliyyətinə cavabı diqqətdən yayınmayıb:** “Prezident Trampın işini mən qiymətləndirməli deyiləm, bunu Amerika xalqı etməlidir. Prezident kimi onun ciddi nailiyyətlərini görürük. Bazarlara baxın, onlar necə yüksəlib. Bu, investorların ABŞ iqtisadiyyatına etimadını göstərir”.

**Kreml sahibi Trampla olan əlaqələri və Rusiya-ABŞ arasındakı gərgin münasibətlər barədə jurnalistin sualına belə cavab verib:** “Hələ ondan soruşmaq lazımdır ki, münasibətləri normallaşdırmaq kimi bir niyyəti varmı. Necə olmalıdır? Bütün təmaslar qadağan edilməlidir? Bizim səfiri ittiham etdilər ki, kiminləsə görüşüb. Axı bu bütün dünyada tətbiq olunan təcrübədir. Burada təəccüblü nə görüblər və niyə bütün bunlar casusluq kimi xarakterizə olunmalıdır?”

**ABŞ KİV-ində Rusiyanın 2016-cı ildə Birləşmiş Ştatlarda keçirilən prezident seçkilərinə təsiri məsələsini toxunan V.Putin deyib:** “Bütün bunları Trampa münasibətdə müxalif olan qüvvələr fikirləşib. Onlar Trampın seçilməsinə qanunsuz xarakter vermək istəyirlər. Bunu edənlər dövlət başçısına ziyan vurur, onu üzürlər, seçicilərə hörmət etmirlər”.

“ABŞ hökuməti Rusiya, KXDR və İranı bir sıraya qoyub, eyni zamanda Moskvadan Pxenyan və Tehran ilə bağlı problemləri həll etməyi tələb edirlər”. V.Putin Rusiyanın Şimali Koreyanı nüvə nəhəngi kimi tanımadığını xatırladıb. Onun sözlərinə görə, Qərb Pxenyanı silah sazişindən çıxmağa doğru təxribata çəkib.

Rusiya prezidentinin fikrincə, Liviya və İraq ilə bağlı vəziyyətlərdən sonra KXDR başqa çıxış yolu görmür və müdafiə olunur.

**Rusiya rəhbərinin əbədi düşməni, Gürcüstanın sabiq prezidenti və Odessa vilayətinin keçmiş qubernatoru Mixail Saakaşvili ilə bağlı verilən suala cavabı daha maraqlı olub:** “O, Gürcüstanın prezidenti olub. İndi isə özünü ukraynalı kimi aparır. Məgər sizdə normal bir ukraynalı yoxdur? Bu mənzərəyə baxmaq təəssüf yaradır, ürəyim qana dönür”.

Mətbuat konfransında gərgin anlar da yaşanıb. Özü də maraqlıdır ki, gərginlik martın 18-də Rusiyada keçiriləcək prezident seçkilərində Putinə rəqib olmağı planlaşdıran tanınmış teleaparıcı Kseniya Sobçakla Putin arasında olub.

Strateq.az xarici mətbuata istinadən xəbər verir ki, Sobçak Kreml rəhbərinə sual ünvanlayıb.

**Sobçak Putindən ölkədə müxalifətin niyə sıxışdırıldığı və Aleksey Navalnının seçkidə iştirakının niyə əngəlləndiyini soruşub.**

“Siz burada jurnalist kimi iştirak edirsiz? Yoxsa sizdən əvvəlki natiq (sual verən-red:) kimi yalan danışırsız və bura namizəd kimi gəlmisiz?” deyə, Putin Sobçakın sualına sualla qarşılıq verib.

Sobçak jurnalist olduğunu və “Dojd” telekanalını təmsil etdiyini deyib.

**Bunun ardınca Navalnını Mixail Saakaşvili ilə müqayisə edən Putin bildirib ki, müxalifət müsbət fəaliyyətlərin əks olunduğu aydın və başadüşülən proqramla çıxış etməlidir:** “Biz Rusiyada ikinci Ukraynanın olmasını istəmirik və buna imkan verməyəcəyik! Hakimiyyətə proqramı olmayan müxalifət nümayəndəsinin gəlməsi Rusiyada ”Maydan"ın baş verməsi və küçələrdə “saakaşvililərin” qaçması deməkdir. Rusiya xalqı radikalizmi istəmir. Lakin bununla belə, ölkədə siyasi rəqabət olmalıdır".

**Putin nə üçün Rusiyada ona rəqib olacaq müxalifətin olmamasına belə cavab verib:** “Özüm özümə rəqib yetişdirəsi deyiləm. Müxalifət haqqında danışan zaman yalnız meydanlarda səs-küy salmaq yox, həm də nəsə təklif etmək vacibdir. Səs-küylü yox, real gündəmlər təklif etmək lazımdır”.

O, həmçinin vurğulayıb ki, ölkədə onun fikirlərini dəstəkləyən siyasi qüvvələrin, eləcə də vətəndaşların geniş dəstəyinə ümid edir.

ABŞ senatorlarının və konqresmenlərinin Rusiyanı Şimali Koreya və İranla tərəzinin eyni gözünə qoymasını Putin sərt ifadələrlə tənqid edib.

**Virtualaz.org xəbər verir ki, Putin bu barədə jurnalistlərdən birinin Rusiyanın Şimali Koreya ilə ABŞ arasında az qala nüvə müharibəsinə gətirib çıxaracaq qarşıdurmada mümkün vasitəçiliyi ilə bağlı sualına cavab olaraq danışıb.**

“Siz fikir verməmisiniz ki, senatorlarınız və konqresmenləriniz, hansı ki, onlar kostyum geyinəndə yaraşıqlı görünürlər və guya ağıllı adamlardır, bizi Şimali Koreya və İranla bir cərgəyə qoyurlar, üstəlik, bizdən Şimali Koreya probleminin və İranın nüvə proqramı probleminin həlli məsələsində kömək xahiş edirlər. Siz, ümumiyyətlə, normal adamsınız?” - Putin amerikalılara xitabən bildirib.

❑ **Hazırladı: Cavanşir ABBASLI**

# Rəsmi Bakının prinsipial mövqeyi və Rusiyadakı anti-Azərbaycan qüvvələrin isterikası

## Kremldəki erməniпərəstlər “Nalbəndyanın qohumu”nun müdafiəsinə qalxıb

**Rusiyanın Azərbaycana təyin etdiyi yeni səfirə rəsmi Bakının aqreman verməməsi artıq iki dövlət arasındakı münasibətlərin sərhədlərini aşaraq daha geniş miqyasda müzakirə olunmaqdadır.**

Adətən ayrı-ayrı dairələr Rusiya-Azərbaycan münasibətləri barədə danışarkən Kremli birmənalı olaraq söz sahibi kimi təqdim edirdilər. Belə bir rəy tərəfdarları var ki, guya Azərbaycan Moskvanın bir sözünü iki edə bilməz. Fəqət sonuncu səfir məsələsində və Avrasiya İttifaqı prosesində Azərbaycan hakimiyyətinin necə bir prinsipial mövqedən çıxış etdiyi ortaya çıxdı.

Rəsmi Bakı bu ilin yayında səlahiyyət müddəti bitdiyi üçün geri çağırılan səfir Vladimir Doroxinin əvəzinə, Rusiya Dövlət Duması tərəfindən namizədliyi təsdiqlənən Georgi Zuyevə “qırmızı işıq” yandırmaqla prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirmiş oldu.

Ancaq görünən budur ki, rəsmi Bakının prinsipiallığı Rusiyadakı bəzi dairələri ciddi şəkildə qıcıqlandırıb və onlar Azərbaycana qarşı hərəkətə keçiblər. Məsələn, son illərdə dəfələrlə Azərbaycan-Rusiya əlaqələrini korlamağa çalışan Rusiya Dumasının MDB məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitə sədrinin birinci müavini Konstantin Zatulin yenə də hərəkətə keçib. Belə ki, “Gxo Moskvı” radiosunda münasibətlərə xələl gətirilməsinə yönəlik mövqe sərgiləyib. Açıq görünür ki, bununla Zatulin gərginliyi artırmağa cəhd edib.

**Deputat Elman Nəsirov** aznews.az-a açıqlamasında qeyd edib ki, K. Zatulin həmişəki kimi, yenə də öz erməniпərəst mövqeyini nümayiş etdirib və Rusiya-Azərbaycan strateji əməkdaşlığına kölgə salmağa cəhd göstərib. Deputat qeyd edib ki, indi Rusiyanın XİN-dəki həmin dairələri öz səhvlərini düzəltmək əvəzinə lazım olmayan informasiyaları mətbuata sızdıraraq Azərbaycanla münasibətlərdə süni gərginlik yaratmaq istəyirlər.



**Zahid Oruc: “Əminəm ki, bu məsələ ilə bağlı iki dövlət arasında diplomatik qalmaqal baş verməyəcək”**

**Deputat Zahid Oruc “Yeni Müsavat”a deyib ki, Azərbaycan müstəqillik qazanandan Rusiyanı ölkəmizdə 5 səfir təmsil edib:** “Onların içərisində, məsələn, Bloxin hətta Ermənistandakı Rusiya səfirini açıq-aşkar millətçilikdə, Azərbaycan əleyhinə fəaliyyətdə və digər bu xarakterli cinayətlərdə suçlayıb. Ümumən götürdükdə ölkəmizə özünü canişin kimi apararaq, diktat dilində fəaliyyət göstərən, həmçinin Rusiyanın Azərbaycanı idarə etmək məramı kimi burada hakimiyyətdaxili proseslərə, ölkənin ictimai-siyasi həyatına kəskin müdaxilə edənlər demək olar ki, olmayıb. O cümlədən sonuncu səfir Doroxin özünü kifayət qədər sabit, soyuqqanlı, Azərbaycanın dövlət mənafelərinə hörmət və ehtiramla yanaşan, onun xarici siyasət kursunu qiymətləndirərkən həddindən artıq ehtiyatlı diplomatik manevralardan istifadə edən şəxs kimi mövqeyini ortaya qoyub. O ki qaldı Zuyev məsələsi ətrafında yaşananlara, görünən budur ki, Azərbaycan həmin məsələdə real milli mənafe qoyub və yeri gəlmişkən, bu addımlar əslində Rusiyanın da xeyrinədir. Çünki əks halda, burada kobud bir siyasət və yalnız Ermənistanın mənafeyi üçün kiminsə XİN-dən, indiyəcən sırf texniki sahədə çalışmış, diplomatik tərcümeyi-halı da çox az olan şəxsin göndərilməsi də daha çox Kremlin mənafelərinə zərbə olardı”.

**Z.Oruc Rusiyadakı qüvvələri iki qismə ayırmağı vacib sayır:** “Rusiyanın içərisində xüsusən də son illərdə Azərbaycanın regional mövqeyini düzgün qiymətləndirən, hazırkı beynəlxalq reallıqları dərk edən, müstəqil dövlətlərin mövcudluğunu normal qarşılayan, xüsusilə də Duqin kimi şəxslərin dayandığı platforma üzərində olan dövlət adamları da mövcuddur. Lakin onların içərisində Zatulinin də daxil olduğu qruplar var ki, belələri Azərbaycan prezidenti və Rusiya rəhbəri arasında formalaşan normal münasibətlərin inkişafında maraqlı deyillər. Əksinə, istəyirlər, Rusiya Azərbaycanı əzən, onu hər hansı bir şəkildə mühakimə edən xəttə qayıtsın. Zuyev üzərində dayananlar da həmin qüvvələrdir. Ancaq mən əminəm ki, Kalaşnikovun söylədiyi kimi, sonda tamam başqa bir şəxs səfir kimi təyinat alacaq, bu məsələ ilə bağlı iki dövlət arasında soyuq münasibətlər və diplomatik qalmaqal baş verməyəcək”.

❑ **E.PAŞASOY,**
❑ **“Yeni Müsavat”**

**Gələn ay "Daşkəsən Filizsaflaşdırma" ASC-nin özəlləşdirilməsi üçün elan edilmiş investisiya müsabiqəsinin müddəti bitir. Vaxtilə SSRİ miqyasında iriliyinə görə fərqlənən bu müəssisə son bir ildə artıq 5-ci dəfədir bu cür müsabiqə predmeti olsa da, özəlləşmə baş tutmur: sonuncu müsabiqə avqustda nəticəsiz başa çatıb.**

# "Daşkəsən Filizsaflaşdırma"nı özəlləşdirməyə qoymayan gizli əl

## Müəssisənin yavaş-yavaş sökülərək, onun materiallarından ətraf rayonlarda ticarət mərkəzlərinin tikintisində istifadə olunduğu, bəzi hallarda qiymətli metalların qanunsuz yollarla satıldığı deyilir

Bir çox mütəxəssislər kombinatı almağa marağın olmamasının hökumətin müəyyənləşdirdiyi özəlləşdirmə şərtlərinin ağırlığından irəli gəldiyini deyirlər. Onlar hökumətin potensial alıcı üçün müəyyən təminatlar verməsini məqsədəuyğun sayırlar. Məsələ burasındadır ki, özəlləşmə şərtlərinə görə, kombinatı alan şirkət onun istifadəsində olan dəmir filizi mədənlərinin bazasında xammaldan son məhsula qədər istehsal zəncirini ölkə daxilində təmin edən klaster yaratmalıdır. Bundan ötrü ümumi həcmi 600 milyon dollardan az olmayan beşilliik investisiya proqramı təqdim edilməlidir. Bundan əlavə, səhmdar cəmiyyətin alıcısı həmçinin dövlət büdcəsinə azı 100 milyon manat pul ödəməlidir. Hökumət isə müstəqil mütəxəssislərdən fərqli olaraq, şərtləri real və ədalətli hesab edir. Hər halda, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin mütəxəssis iradlarına cavab olaraq verdiyi açıqlamada belə qeyd olunur. Açıqlamada o da deyilir ki, özəlləşdirməni ƏMDK tək deyil, İqtisadiyyat, Maliyyə, Ədliyyə, Vergilər, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatası və Daşkəsən rayon İcra Hakimiyyətinin təmsilçilərindən ibarət müsabiqə komissiyası aparır.




Qeyd olunmalıdır ki, müəssisənin investisiya müsabiqəsi üsulu ilə satışı nəzərdə tutulduğuna görə müsabiqədə iştirak edəcək yerli və xarici şirkətlərdən ən çox investisiya qoyan və onun daha səmərəli qoyuluşunu təklif edən investorlara üstünlük veriləcək. Təklif olunacaq investisiya proqramı ölkə daxilində xammaldan son məhsula qədər istehsal zəncirini əhatə edən inteqrasiya olunmuş polad zavodlarının tikintisini əhatə etməli, bölgədə ən az 1000 nəfər yeni iş yeri açılmasına şərait yaratmalıdır.

Maraqlıdır ki, "Daşkəsən Filizsaflaşdırma" ASC son 14 ildə iki dəfə xarici investorlara *("Aldex Limited", Britaniya, "Det.Al Metal Limited", BƏƏ)* satılıb. Lakin hər özəlləşdirmənin nəticələri ləğv olunub. 2013-cü ildə kombinatın bazasında səhmləri dövlətə məxsus "Azərbaycan Polad İstehsalı Kompleksi" QSC yaradılıb və üç il sonra ləğv edilib. 2011-ci ildə kombinat Birləşmiş Ərəb Əmirliklərində yaradılmış "Det.Al Metal Limited" şirkətinin nəzarətində olarkən, burada 214 min ton dəmir filizi konsentratı istehsal olunmuşdu. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı ildə istehsal 25 min tona düşüb.

2013-cü ildə "Baku Steel Company" MMC ilə Almaniyanın "Siemens" şirkəti arasında anlaşma memorandumu imzalanıb. "Siemens" şirkətinin vitse-prezidenti Alferd Pisinger və "Baku Steel Company"nin (BSC) Müşahidə Şurasının sədri Rasim Məmmədovun imzaladığı anlaşma memorandumunda bildirilir ki, Daşkəsəndə mövcud filiz saflaşdırma kombinatının yerində illik hasilatı 5 milyon ton dəmir konsentratı olan müasir tipli filiz saflaşdırma kombinatı inşa ediləcək. BSC isə yeni metallurgiya güclərinin tikintisinə 300 min avro investisiya qoymaq niyyətində olduğunu açıqlayıb. Lakin sonradan məlum olub ki, hökumətin bu müqavilədən xəbəri belə yoxdur. Bununla bağlı ƏMDK-dan verilən açıqlamada heç bir özəl şirkətin dövlət müəssisəsi üzrə başqaları ilə hər hansı müqavilə imzalamaq səlahiyyətinin olmadığı qeyd olunmuşdu. Yəqin elə buna görə də həmin memorandum icra olunmamış qaldı.

Ötən ilin yayında özəlləşdirməyə açılmazdan öncə "Daşkəsən Filizsaflaşdırma" ASC-nin İdarə Heyətinin sədri Ələddin Sadıqov 10 ildən çoxdur tutduğu vəzifədən azad edilib. Müəssisəyə rəhbərlik "Yeni Həyat" şirkətlər qrupunun idarə heyətinin sədri vəzifəsində çalışmış Fərid Əsədova həvalə edilib.

Rəsmi məlumatlara görə, kombinatın təsdiq olunmuş ehtiyatları 270 milyon tondur. Bu ehtiyatlar hesabına yaradılmalı olan klasterin 80-100 illik istehsalının təmin olunacağı proqnozlaşdırılır. Lakin maraqlıdır ki, Yaponiyanın "Marubeni Protechs Corporation" konsaltinq şirkətinin mütəxəssisləri hesab edirlər ki, ehtiyatların qiymətləndirilməsi köhnə və mötəbər olmayan metodla aparılıb. Başqa sözlə, şirkətin nəticələri bir neçə ay əvvəl açıqlanan araşdırmasına görə, Daşkəsən yataqlarında ehtiyatların ancaq 31 milyon tonu açıq üsulla - indi olduğu kimi - hasil edilə bilər. Qalan 239 milyon tonunu isə yeraltı üsullarla - şaxtalar qazmaqla çıxarmaq mümkündür. Hansı ki, 1993-cü ildə Daşkəsən filiz kombinatı işini dayandırana qədər şaxta üsulu ilə hasil edilən filizdə dəmirin səviyyəsi 40 faizdən 25 faizə qədər enmişdi. Bundan əlavə, yeraltı hasilat daha çox investisiya, daha çox xərc tələb edəcək.

Yapon konsaltinq şirkəti bildirir ki, ehtiyatların həcmi və hasil olunacaq filizdə dəmirin səviyyəsi müstəqil araşdırma ilə sübuta yetirilməyib. "Marubeni Protechs Corporation" məsləhət görür ki, hökumət müstəqil konsaltinq firması ilə müqavilə bağlayıb həm ehtiyatların həcmini, həm də hasil olunacaq filizdə dəmirin səviyyəsini yenidən yoxlasın.

O da maraqlıdır ki, bəzi mənbələr yapon şirkətinin kombinatla bağlı araşdırmasını potensial investorun müəssisənin dəyərini azaltmağa yönəlmiş cəhd kimi qiymətləndirirlər.

Qeyd edək ki, ötən ilin iyulunda president sərəncamı ilə özəlləşdirməyə açılan "Daşkəsən Filizsaflaşdırma" ASC elə o vaxtdan istehsal fəaliyyətini dayandırıb.

"Yeni Müsavat"a daxil olan məlumata görə, hazırda kombinatda baxımsızlıq hökm sürür. Hətta onun metal konstruksiyalarının sökülərək ətraf rayonlarda ticarət və iaşə obyektlərinin tikintisində istifadə olunduğu bildirilir. Görünən odur ki, kimlərsə özəlləşdirməyə qədər kombinatdan mümkün olan qədər yararlanmaq niyyətindədir. Bu niyyət isə potensial alıcıları müəssisədən uzaqlaşdıra bilər.

**❑ İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

# Şəhid qızını öldürən biznesmen oğlu həbsdən buraxıldı

## Bakı Apelyasiya Məhkəməsindən təzadlı qərar

**Şəhid Elton Əkbərovun qızı, 1975-ci il təvəllüdlü Könül Əkbərovanı "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobillə vurub öldürən 17 yaşlı Rəhim Rəhimov ev dustaqlığına buraxılıb. Onun həbs olunması haqda Səbayel Rayon Məhkəməsinin çıxardığı qərarı Bakı Apelyasiya Məhkəməsi dəyişib. Bu haqda politika.az saytı məlumat yayıb. Sayt yazır ki, iş adamı, deputatlığa keçmiş namizəd Akif Rəhimovun oğlu haqda həbs qərarı ev dustaqlığı ilə əvəzlənib. A.Rəhimov övladının azadlığa buraxılması üçün Bakı Apelyasiya Məhkəməsi ilə razılığa gəlib. İddialara görə, sövdələşmə yüksək məbləğdə pul qarşılığında baş tutub.**

A.Rəhimov Xırdalanda zavod rəhbəridir və oğlunun həbsdə qalmasına imkan verməyib. Bununla da şəhid qızının qanı batırılır. R.Rəhimlinin atası "Xırdalan-Xəz" Açıq Tipli Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədridir. A.Rəhimov 2015-ci ildə keçirilən parlament seçkiləri zamanı namizədliyini irəli sürüb. Aktiv seçki kampaniyası aparan A.Rəhimov qalib gəlmək şansları olsa da, qəfil namizədliyini geri çəkib. Bilinən odur ki, A.Rəhimov "Yeganə Mamed" kimi tanınan, uzun illər "Yeganə" şadlıq sarayını işlədən Mamed Rəhimovun qardaşıdır. M.Rəhimovun yaşadığı problemlər üzündən 2011-ci ildə ölkədən getdiyi də bildirilir.

3 uşaq anası olan K.Əkbərovanı noyabrın 8-də, 19:30-da Bayraq meydanı yaxınlığında "JEEP" markalı, ağ rəngli, Az 90 FO 007 nömrə nişanlı avtomobil vurub. Sürücü qadını köməksiz vəziyyətdə qoyaraq hadisə yerindən uzaqlaşıb. 3 uşaq anası olan qadın hadisə yerində keçinib. K.Əkbərovanın anası Bəsti Qədimovanın mətbuata israrlı müraciətlərindən sonra Rəhim Rəhimov saxlanılıb. 17 yaşlı yeniyetmənin törətdiyi ağır qəzadan sonra hadisə yerindən qaçmışdı, sonrakı günlərdə də onun yerini müəyyən etmək mümkün olmurdu. Şəhidin həyat yoldaşı Bəsti Qədimova "Yeni Müsavat"a demişdi ki, qızını vuran sürücünün idarə etdiyi maşın da daxil olmaqla, 3-4 maşın Salyan şosesində yerləşən "Manqal" restoranına gedirmişlər: **"Bunlar dövlətlilərin uşaqları olub, ad gününə, yeyib-içməyə gedirmişlər. Qəzanı törədib və maşını orada qoyaraq qaçıb. Qızıma yardım etməyiblər, xəstəxanaya aparmayıblar"**.

B.Qədimovanın mətbuata açıqlamalarından sonra nəhayət ki, R.Rəhimov tutuldu. Həmin vaxt ölümlə nəticələnən qəzadan artıq 20 gün ötmüşdü.

Bəs indi Bakı Apelyasiya Məhkəməsinin hakimi hadisə yerində qaçan sürücünü hansı əsasla azad edib? Prokurorluq niyə protest verməyib?

Bu sualların cavabı açıq olaraq qalır.



Bir maraqlı məsələ isə məhkəmələrin avtoqəzalara, həm də ölümlə nəticələnən ağır avtoqəzaları törədənlərə fərqli münasibəti müşahidə olunur.

Bir neçə ay öncə general Novruzəli Orucovun oğlu Rüstəm Orucov yolda "avtoşluq" edən "Xalıq Faiqoğlu" şirkətinə məxsus avtobusun sürücüsünü saxlayaraq silləmişdi. Sonra da sürücüsən üzr istəyib ona döyülməkdən dolayı vurulan ziyanı da ödəmişdi. Bu məsələyə görə Rüstəm Orucov həbsə alındı, atası Novruzəli Orucovu isə Səfərbərlik Xidmətinin rəis müavini vəzifəsindən azad etdilər.

Sürücü ilə dalaşan general oğlu əlbəttə cəzasız qalmamalı idi. Amma təzad ondan ibarətdir ki, sürücüyə şillə vuran məmur balası tutulduğu halda, şəhid qızını qanunsuz olaraq idarə etdiyi maşınla vuran, oliqarx oğlu olan yeniyetmə azadlığa buraxılır...

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

**Vergilər naziri vəzifəsindən uzaqlaşdırılan Fazil Məmmədovun ətrafında müəmma davam edir. Sabiq nazirin səhhətində yaranan problemə görə vəzifəsindən çıxarıldığı deyilsə də, onunla bağlı ciddi araşdırmaların başladıldığı barədə məlumatlar başqa mətləblərdən xəbər verir Modern.az-a sabiq nazirlə bağlı yeni məlumatlar daxil olub. Sayt yazır ki, Şəmkir rayonunda inşa edilmiş "Şəmkir Aqropark" Logistika Mərkəzi Fazil Məmmədovun korrupsiya şəbəkəsinin bir qolu olub. Qeyd edilir ki, həmin kompleksin tikintisini kurasiya edənlər Fazil Məmmədovun birbaşa yaxın adamları olan Şəmkirin hazırkı icra başçısı Alimpaşa Məmmədov və Fazil Məmmədovun müşaviri işləmiş Qüdrət Seyfullayevdir.**

# Fazil Məmmədovun ətrafında müəmma-yeznəsi ölkədən 10 milyonla qaçıb iddiası

## Sabiq nazir hesab edir ki, işdən çıxarılmasında etimad göstərdiyi adamların rolu olub



İddialara görə, "Şəmkir Aqropark" kompleksinin inşasından tutmuş fəaliyyətinə qədər bütün dövrləri əhatə edən iri maliyyə mənimsəmələri həyata keçirilib. Bu prosesin Fazil Məmmədovun havadarlığı altında gerçəkləşdiyi söylənilir. Kompleksdə olan soyuducu anbarların qurulmasında mənimsənilən vəsaitin milyonlarla manatla ölçüldüyü vurğulanır.

Məlumata görə, Qüdrət Seyfullayev "Şəmkir Aqropark"ın direktoru işlədiyi müddətdə müxtəlif adlar altında minlərlə ton meyvə və tərəvəz alınaraq qəsdən korlanıb, yararsız məhsul kimi silinib. Məqsəd isə ayrılan pulların yeyintisini ört-basdır etmək olub. "Şəmkir Aqropark" kompleksində istehsal sahəsində baş verən bəzi hadisələrin ört-basdır edilməsində, milyonlarla manat vəsaitin sovrulmasında və mənimsənilməsində kompleksin digər rəhbər şəxslərinin də adı keçir. Bu səbəbdən də Qüdrət Seyfullayevin müavinləri işləmiş şəxslərin də mənimsəmə və israf etmə maddələri ilə cinayət məsuliyyətinə cəlb oluna biləcəyi iddia olunur. Digər məlumata görə, hazırda Şəmkir rayonunda Fazil Məmmədova görə ciddi yoxlamalar aparılır. O da bildirilir ki, Fazil Məmmədovun kurasiyasında olmuş "Snerjy Group", "Ata Holdinq", "XX əsr" şirkətlərini yoxlayırlar. Hətta sabiq nazirin Şəmkir şəhər icra nümayəndəsi işləyən yeznəsinin də artıq işdən çıxarıldığı bildirilir.

"Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, Şəmkir şəhər icra nümayəndəsi Çingiz Həsənov Fazil Məmmədov işdən çıxarılmazdan əvvəl ölkədən gedib. Onun özü ilə 10 milyon manat apardığı da iddia olunur. Bildirilir ki, həmin pullar Şəmkirdə mücərrəd bir layihənin gerçəkləşməsi üçün Çingiz Həsənova ötürülüb. Büdcə vəsaiti olan həmin məbləğin nəğdləşdirilərək götürüldüyü də gələn məlumatlar sırasındadır. Həmin məbləği Ç.Həsənov konkret hesaba köçürməli olub, lakin bunu etməyib və ölkədən həmin pullarla bərabər çıxıb.

Bildirilir ki, hazırda Fazil Məmmədov həm də kadrlarına görə gərginlik içindədir. O hesab edir ki, işdən çıxarılmasında ətrafında olan və etimad göstərdiyi kadrların ona qarşı fəaliyyətdə olmaları əsas rol oynayıb. Vergi Nazirliyinin arxa kabinetlərində cərəyan edən gizli sövdələşmələr haqda məlumatlar hakimiyyətdəki müxtəlif çevrələrə sızıb. Böyük məbləğlərin ölkədən çıxarılması zamanı yol verilən yeyintilər haqda məlumatlar kənara çıxıb. Fazil Məmmədov hələ 2013-cü ilin sonlarında, 2014-cü ilin əvvəllərində Vergilər Nazirliyində əcinnələri müəyyən etmək üçün o dövrdə vəzifədə olan Eldar Mahmudova üz tutmuşdu. Həmin vaxt Eldar Mahmudovun xəfiyyələri Vergilər Nazirliyində çalışan hər kəsi nəzarətə götürmüş, bütün şübhələr nazirlikdə çalışan Fazil Məmmədovun qohumlarının üzərində cəmlənmişdi. Həmin günlərdən birində xəbər yayılmışdı ki, Vergilər Nazirliyinin təhlükəsizlik xidməti rəisi Samir Qurbanov işdən çıxarılıb. Bundan qəzəblənən Samir Qurbanov nazirliyin əsas giriş qapısını və təhlükəsizlik kamerasını atəşə tutmuşdu. Samir Qurbanov vergilər nazirinin müavini Namiq Əliyevin bacanağıdır. S.Qurbanovun vergilər naziri Fazil Məmmədovun ən yaxın və inanılmış adamlarından biri, nazirin xaricdəki biznesinin idarəçiliyi ilə məşğul olan, "ATA-Holdinq"in Müşahidə Şurasının üzvü Qafar Qurbanovun qardaşıdır. O dövrdə belə xəbər də vardı ki, Samir Qurbanov sələfi məzhəbini qəbul edib və icmanın nüfuzlu üzvlərindən biridir. İddiada o da bildirilir ki, onun nüfuz dairəsində 300 nəfər sələfi olub. S.Qurbanov bir neçə il Vergilər Nazirliyinin təhlükəsizlik xidmətinin rəhbəri vəzifəsində çalışıb. O, mühafizə xidmətinin rəhbəri kimi hər ay nazirlikdən rəsmi maaşından əlavə 50 min manat "paket" də (qeyri-rəsmi maaş) alırmış. Bu pul icmanın ehtiyaclarına xərclənirmiş. Bu hadisədə gizlində qalan bir ad-soyad da vardı - Rafael Qurbanov! Nazir Fazil Məmmədovla bibioğlu-dayıoğlu kimi qan qohumu olan Rafael Qurbanov da vəhhabi olan və nazirliyi güllələyən Samir Qurbanovun doğmaca əmisi oğlu imiş. Fazil Məmmədov hər ay vəhhabilərə 50 min manat pul ödəyirmiş. Ta ki, onun yaxın qohumu Samir Qurbanov onun özünə qarşı çıxana qədər...

Fazil Məmmədovun Rafael Qurbanovun təşkilatçılıq imkanlarından və əlaqələrindən ölkə xaricində işlərini aşırmaq üçün istifadə etdiyi də bildirilir. Qeyd olunur ki, Samir Qurbanov Vergilər Nazirliyində "qoçuluq" edəndən sonra Fazil Məmmədov onu həbsə aldırılıb. Amma onu çox da həbsdə saxlaya bilməyib. Belə ki, Samir Qurbanov və qardaşı, əmisi Fazil Məmmədovu və Binəqədinin İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovu gizlinlərini ictimailəşdirməklə təhdid ediblər. Bildiriblər ki, onların iştirakı və üzərlərindən gerçəkləşdirilən maxinasiyalar haqda danışacaqlar. Həmin vaxt mətbuatda Fazil Məmmədovun özəl və biznes xəbərləri, o cümlədən hətta xaricdəki bank hesabları barədə təfərrüatlar mətbuata sızdırılmağa başlamışdı. Bundan sonra vergilər naziri çetesi daxilində yaranan ciddi problemin sülh yolu ilə həlli istiqamətində addımlar atdı, Samir Qurbanovu həbsə yollayan Fazil Məmmədov özü onu oradan xilas etdi. Vaxtilə Bakı Şəhər Baş Polis İdarəsində Cinayət-Axtarış İdarəsinin rəisi işləmiş Samir Qurbanovun azad olunandan sonra ölkədən getdiyi haqda da xəbərlər var. Mümkündür ki, Fazil Məmmədovla əlaqəli aparılan səssiz araşdırmaların bir elementi də bu məsələ olsun.

Hazırda Fazil Məmmədovun qubernatorluğuna daxil olan rayonlarda - Şəmkir, Gədəbəy, Binəqədi, Yardımlıda icra hakimiyyəti başçıları da çıxılmaz durumdadır. Fazil Məmmədovun qəfil işdən çıxarılması ona arxalanıb qanunsuzluqlara qol qoyan icra başçılarının durumunu kəskin şəkildə ağırlaşdırıb. Bu gün bu rayonlardan istənilən birinə prokurorluğun yoxlama qrupu göndərilsə, çoxsaylı qanunsuzluqların müyyən olunacağı şübhəsizdir. Gədəbəydən aldığımız son məlumatlara görə, icra başçısı Ramiz Yediyarov qeyri-müəyyənlikdən istifadə edərək idarə və təşkilatlardan pul yığdırır. Başçı pulun hansı məqsəd üçün yığıldığını demir, tələsik şəkildə pul yığımı ilə bağlı tapşırığının icra olunmasını istəyir. Bu tələskənliyin nə ilə əlaqəli olmasını isə bilən yoxdur. Belə xəbərlər var ki, R.Yediyarov patronu Fazil Məmmədiov kimi qəfildən işdən çıxarılacağını ehtimal etdiyindən tələskənliyə düşüb. Bu həm də onu göstərir ki, Fazil Məmmədovun kadrları olan icra başçıları çamadan ab-havasındadırlar...

❑ **E.HÜSEYNOV**



# Şeyxin qudasının oğluna 4 il iş istədilər

**Nəsimi Rayon Məhkəməsində sabiq deputat, Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin qudası Qalib Salahzadənin oğlu Əlihüseyn Salahzadənin məhkəməsi keçirilib.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, prosesdə məhkəmə istintaqı yekunlaşıb.

Dövlət ittihamçısı çıxış edərək Ə.Salahzadənin 4 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Məhkəmə dekabrın 20-də davam etdiriləcək.

Qeyd edək ki, Əlihüseyn Salahzadə sentyabrın 13-də Nəsimi Rayon Məhkəməsinin qərarı ilə həbs edilərək Kürdəxanı həbsxanasına göndərilib. O, Cinayət Məcəlləsinin 315.2 maddəsi ilə təqsirli bilinir. Ə.Salahzadə "Azərsu"nun əməkdaşına zor tətbiq etməkdə ittiham edilir.

# Binəqədi İcra Hakimiyyətinin sabiq baş mühasibi həbs edildi

## Kəklik Əsədova dələduzluqda suçlanır



**Binəqədi Rayon Polis İdarəsinin (RPİ) əməkdaşları Binəqədi Rayon İcra Hakimiyyətinin sabiq baş mühasibi Kəklik Əsədovanı həbs ediblər.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, K. Əsədovaya qarşı bir müddət əvvəl RPİ-nin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə cinayət işi başlanıb. Şikayətçilər əsasən ibtidai sinif müəllimləri olub. Qadın müəyyən məbləğ müqabilində ibtidai sinif müəllimlərinə ünvanlı sosial yardım vəd edib, onlar isə qanunsuz gəlir üçün borc götürüblər. K.Əsədova öz qurbanlarını əmin edib ki, arzu edənlər üçün ünvanlı sosial yardım təşkil edə bilər. Belə yardımı almaq istəyənlər isə dərhal tapılıb.

"Onun qurbanlarının çoxu qadınlar, ibtidai sinif müəllimləri olub. Müttəhimin əlbiri ona belə avam və sadəlövh adamları tapmaqda yardım edib. Amma onlar gözlənilən qədər də avam olmadılar və polisə müraciət etdilər", - Binəqədi RPİ-dən bildiriblər.

**K.Əsədova qadınlara bildirib ki, onun yaxın rəfiqəsi Əmək və Sosial Müdafiə Nazirliyində çalışır və problemsiz onlar üçün ünvanlı sosial yardım təşkil edə bilər, amma bu, müəyyən məbləğə başa gələcək.**

"Müəllimlər fırıldaqçıya inanıblar. Halbuki yerli telekanallarda dəfələrlə ünvanlı sosial yardım üçün müraciət edən şəxslərin siyahısının məhdud olması barədə məlumat yayılmışdı. Zərərçəkənlər əlavə gəlir mənbəyi əldə etmək istəyirdilər, bunun üçün hətta Əsədovanın sözlərinə inanaraq müəyyən məbləğ də ödəməyə hazır idilər. Əsədova onlara ünvanlı sosial yardımın Azərbaycanda hələ ən azı iki il də veriləcəyini vəd etmişdi", - polisdən bildirilib.

K.Əsədova Məhbubə Kərimovadan (1981-ci il təvəllüdlü) iki min, Gülər Məmmədovadan (1964-cü il təvəllüdlü) 1,5 min, Yeganə Mustafayevadan (1967-ci il təvəllüdlü) 800, Gülbəniz Məmmədovadan (1980-ci il təvəllüdlü) isə 500 manat alıb.

Polisdə daha bir maraqlı faktı qeyd ediblər. Belə ki, müəllimlərin bəziləri elementar olaraq ərizə yaza bilməyiblər, bu isə onların qeyri-peşəkar olduqlarını sübut edib. Şikayət edənlər arasında hətta sosial yardım almaq üçün borc götürən də var. Fəaliyyətinin qanuni olduğunu göstərmək üçün K.Əsədova onlardan ünvanlı sosial yardım almaq üçün tələb olunan sənədlərin surətini çıxarmağı da tələb edib.

Kəklik Əsədova Binəqədi İH-də rəsmi olaraq 2007-ci ilə qədər çalışıb, daha sonra bu qurumu Binəqədi qəsəbəsində təmsil edib.



# Adamların insanlıq dərdi...

Elşad MƏMMƏDLİ
elshad1978@gmail.com

**İnkişaf etməkdə olan, bunu istəyən, arzulayan və cəhd edən ölkələrin cəmiyyətləri üçün düşündürücü bir sual var: Hələ tam formalaşmamış toplumlara demokratiya daha çox lazımdır, yoxsa insanların nəzakətli, mədəni, etik, sayğılı davranışları mənimsəməsi? Əlbəttə, çoxları kimi mən də o qənaətdəyəm ki, ikinci daha vacibdir. Onlar olmadan demokratiyanın tətbiqi də bir fayda verməyəcək, əksinə, ziyanları daha çox olacaq. Odur ki, ilk növbədə gerçək bir insan, vətəndaş, ətrafdakılara diqqət və sayğılı olmaq lazımdır. Yalnız fərd olaraq mədəni, yaxşı davranışlı adamlar demokratik ənənələri avtomatik mənimsəyə biləcək. Yonulmamış, formalaşmamış adamlara isə demokratiya isə sadəcə özbaşınalıq təsiri bağışlayacaq və ondan yararlana bilməyəcək, mənfiyə yönəldəcək.**

Yəni biz problemlərin həllinə daha aşağı qatlardan və kiçik dediyimiz, əslində isə fundament olan böyük işlərdən başlamalıyıq. İlk ona diqqət etməliyik ki, insanlar bir-biri ilə normal rəftara yiyələnsinlər, bunu bir standarta çevirək, nümunələrlə. Əlbəttə, cəmiyyətdə kifayət qədər səviyyəli, kübar, mədəni adamlar var. Amma bunlar hələ ki, azlıqdadır.

Eyvandan zibil atan, liftdə siqaret çəkən, təsadüfən qoluna toxunanda səsini başına atan, "ayəə", "əəə", "azz" xitabları ilə adamları səsləyənlər təəssüf ki, daha çoxdur. Bunlardan qurtulmalıyıq öncə. Əgər bir toplumun mədəni davranış səviyyəsi yoxdursa, hamı bir-birinə kobud davranırsa, gülərüzlük göstərmirsə, adamlar hüquqdan çox kriminala meyllidirsə, deməli, demokratiyaya çatmağımıza da hələ çox var. Çünki demokratiya məhz insanlar bəlli qaydalara əməl edəndə ortaya çıxan sistemdir. Başqa sözlə, demokratiya elə həm də qaydalara əməl etmək, olmazları ayaqlamamaq, sivil davranış deməkdir.

Avropaya, Amerikaya gedib-gələnlər daha çox ondan heyranlıqla danışır ki, tanıdın, tanımadın məhəllədə, küçədə rastlaşdığın adamlar sənə gülümsəyir, salam verir. Hətta Rusiya kimi bizdən daha az fərqlənən ölkədə olanlar orada heç olmasa növbə mədəniyyətinin olmasından ağızdolusu danışırlar. Məgər biz bunları edə bilmərikmi?

Əlbəttə, bacararıq. Sadəcə, bunun üçün bağçadan tutmuş universitetə qədər maarifləndirmə, təbliğat işləri aparmaq, toplu yerlərdə ictimai təşkilatların flaş-moblar keçirməsi, elektron KİV-lərin mövzunu gündəmə gətirməsi ilə müəyyən bir zamanda nailiyyətlər əldə etmək olar.

Bəndənizi daha çox narahat edən isə insanların bir-birinə kobud, sayğısız, yuxarıdan aşağı münasibət sərgiləməsidir.

Bu yazını yazmağıma səbəb isə qarşılaşdığım bir hadisə oldu.

Bir neçə gün öncə axşam marketdən alış-veriş edib çıxırdım, məndən qarşıda geyim-kecimli, qalstuk-kostyumlu bir nəfər addımlayırdı. Qapının ağzında isə bir gənc xanım hansısa firmanın ətir nümunələrini təqdim edirdi. Ona çatana gülümsəyir və əlindəki balaca, lentvari, qoxu verən kağız parçasını təqdim edirdi. Məndən qarşıda gedən oğlana da həmin nümunədən uzadanda oğlan səsini atdı başına ki, "əl çək də, bezdirmisiniz"... Ardınca mən qıza yaxınlaşdım, kağızı aldım, üzünə gülümsədim, dedim, xanım, fikir verməyin, siz ondan qat-qat yüksək, səviyyəli adamsınız!

Vətəndaşlar, soydaşlar! Marketlərdə, küçədə sizə reklam, ətir nümunəsi və s. uzadan gənc qızları (bəzən oğlanlar da olur) lütfən acılamayın, köntöy cavablar verməyin. Nəzakətlə davranın onlarla. O gənclərin çoxu tələbədir, sosial durumu yaxşı vəziyyətdə olmayan ailələrin övladlarıdır, ailəsinə kömək etmək istəyən üzvləri, vətəndaşlarımızdır. Ayıb bir iş görmürlər, ən ağır zəhmətə qatlaşıb pul qazanırlar. Hər paylanan, bizlərə təqdim edilən elana görə 5 və ya 10 qəpik qazanırlar. 10-ca qəpik faydanız dəysin bir insana! Alın, baxın, üzünə gülümsəyin, hətta lazım deyilsə belə, sonra atarsınız. Bu, sosiallaşmaqdır, dəstəkdir. Bütün dünya sosiallaşmağı prioritetə çevirib, biləsiniz. Bu ənənələrdən sonra gələcək ölkəmizə indikindən daha firavan yaşam modulu! Əgər bizlər bir-birimizə dəstək olmaq əvəzinə aşağılamağa çalışsaq, onda vəziyyətimiz daha da çətin olar.

# MSK üzvü Seçki Məcəlləsinə təklif olunan dəyişikliyə qarşı çıxdı





## Mikayıl Rəhimov: "Seçici yoxlamağı kameraların ümidinə buraxmaq olmaz"
## Fazil Mustafa: "Terror məqsədilə də kimsə seçki məntəqəsinə daxil ola bilər"

**Azərbaycanda seçkilər zamanı seçki məntəqəsinin girişində seçicinin şəxsiyyətinin müəyyənləşdirilməsi və sənədlərinin yoxlanılması qaydası ləğv edilir. Bununla bağlı Seçki Məcəlləsinin 104-cü (Səsvermə qaydası) maddəsinin 7-ci bəndi ləğv olunur.Hazırda qüvvədə olan bənd isə belədir: "Məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri yoxlamalıdır".**

Layihə Milli Məclisin dekabrın 15-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq. Seçki zamanı bəzi hallarda şəxslərin "karusel" əməliyyatlarına cəhd etmələrinin, bir neçə məntəqədə səs verməyə çalışmalarının şahidi oluruq.

Bəs bu dəyişikliyə səbəb nədir?

Məsələ ilə bağlı **"Yeni Müsavat" a danışan deputat Fazil Mustafa** bildirib ki, məntəqələrdə kamera sistemi də var və bütün seçiciləri də ayrı-ayrı kameralardan müşahidə etmək mümkün olacaq: "Hər hansı bir şəkildə şübhəli məqam olduğu zaman vətəndaş, həmin videolentlərin göstərilməsini məhkəmədə sübut kimi tələb edə bilər. Burada da aydınlaşa bilər ki, seçkidə hər hansı bir şəkildə saxtakarlıq həyata keçirilməyib. Ancaq burada bütövlükdə bəndin tam şəkildə qadağan olunması doğru deyil. Çünki terror məqsədilə də kimsə seçki məntəqəsinə daxil ola bilər. Yəni şəxs üzərində başqa vasitələrlə də içəri daxil olmağa cəhd edər. Ona görə də şəxsiyyət vəsiqəsinin lazım olduqda tələb edilməsi, hər halda, ümumi faydalara uyğun şəkildə həyata keçirilməlidir. Burada söhbət seçicinin "karusel" və ya hansısa formada müdaxiləsindən getmir. Söhbət terrorçuluğa qarşı diqqətli davranışdan gedir. Belə olarsa, məncə, daha məqbul variant tapıla bilər. Bütövlükdə isə bu dəyişikliklər bürokratik maneələrin ortadan qaldırılması üçün nəzərdə tutulur. Çünki hansısa şübhəli şəxsdən söhbət gedirsə, orada müşahidəçilər var və onların tələbi ilə bu şəxslərin yoxlanması nəzərdə tutulmalıdır. Milli Məclisdə müzakirələrdə də bununla bağlı fikrimizi səsləndirəcəyik".

**F. Mustafa qeyd edib ki, xarici ölkələrdə göndərilən bülleten əsasında səs verilir:**

"Bizdə də əslində seçicinin şəxsiyyət vəsiqəsindən çox ona göndərilən səsvermə bülleteni və ya çağırışından istifadə edilir".

**"Yeni Müsavat"a danışan Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimov ilk olaraq qeyd edib ki, dəyişikliyi parlament etdiyi üçün nələrin dəyişdiyini də onlar bilirlər:** "Səs verməklə, dəyişikliyi qəbul edirlər. Biz isə Mərkəzi Seçki Komissiyası olaraq qanunun tətbiqini təmin edən təşkilatıq. Hesab edirəm ki, Seçki Məcəlləsində edilən dəyişikliklər daha mütərəqqi tədbirlərin, ideyaların gerçəkləşməsi üçün imkan yaradan dəyişikliklər olmalıdır. O baxımdan da düşünürəm ki, bu dəyişikliklər də ümumi dövlətin maraqlarına xidmət edən işlər olacaq. Onların da tətbiqini Mərkəzi Seçki Komissiyası olaraq, təbii ki, biz həyata keçirəcəyik. İndi bu hansı formada olacaq, necə formalaşdırılacaqsa, bunu da qanun qəbul edildikdən sonra biləcəyik. İndiki mərhələdə hansısa təkliflər vermək düşünürəm ki, bizə aid olan məsələ deyil. Sadəcə olaraq, onu qeyd edim ki, seçkilərin keçirilməsi ərəfəsində qarşılaşdığımız problemlərlə bağlı mütəmadi olaraq mövqe ifadə etmişik. O cümlədən də parlament üçün də məsələlər qaldırmışıq ki, bizim ümumi işimizə nələr mane olur. Bunların düzəlməsi üçün də təkliflər vermişik. Gözləyək, müzakirələr bitsin və qanunun tətbiqi ilə bağlı mülahizələrimizi mətbuatla bölüşəcəyik. Ancaq konkret olaraq bu məsələ ilə bağlı biz parlamentə müraciət etməmişik. Hesab edirik ki, sonuncu keçirilən referendumdan sonra Seçki Məcəlləsində bir sıra maddələr dəyişilməlidir. Bunun da baş verməsini gözləyirik. Dəyişilməyə ehtiyacı olan kifayət qədər çox maddə var".

**M. Rəhimov bildirib ki, kameralar vasitəsilə tam nəzarəti həyata keçirmək mümkün deyil:** "Açıqlanan məlumat tam deyil və buna görə də qiymətləndirmək olmur. Ancaq bütün hallarda Məntəqə Seçki Komissiyasının vəzifəsidir ki, məntəqəyə daxil olan insanların hansı subyekt qismində ora girməsini dəqiqləşdirsin, bununla bağlı müvafiq qeydiyyat aparsın və onun subyekt olaraq hüquqlarını həyata keçirməsinə şərait yaratsın. Necə həyata keçirilməsinin isə Seçki Məcəlləsində yolları göstərilib. Həmin yollardan biri, yeni daxil olanların sənədlərinin araşdırılması, yoxlanması məsələsi ləğv olunursa, bunun yerinə təbii ki, alternativ göstərilməlidir. Ancaq hazırda bu alternativ göstərilmir. Bəs komissiya bu maddədə göstərilən prosesi necə həyata keçirəcək? Kameralara gəlincə isə onlar bütün məntəqələrdə quraşdırılmayıb. Məntəqələrin cəmisi 20 faizində kameralar var. Onlar da məntəqənin çölünü deyil, içərini, səsvermə otağını çəkir. Məntəqəyə gələn adamların kimliyini dəqiqləşdirmək isə birbaşa olaraq Məntəqə Seçki Komissiyasının vəzifələrindən biridir. Bunu da kameraların ümidinə buraxmaq olmaz".

**Mərkəzi Seçki Komissiyasının keçmiş üzvü Akif Qurbanov isə dəyişikliyi doğru saymayıb:** "Əvvəla, onu deyim ki, qanun layihəsinə dəyişikliklərin nələr olması bütöv şəkildə görünməlidir. Bu haqda isə heç bir məlumat yoxdur. Kompleks surətdə təkliflərin nə olmasını bilmirik. Məsələnin ikinci tərəfi də budur ki, açığı, dəyişiklik mənim üçün sürpriz olmadı. Vətəndaş cəmiyyətinə, siyasi institutlara münasibətdə məhdudlaşdırıcı siyasət davam etdiyi kimi seçki institutunu da bitirməyə çalışırlar".

❑ Əli RAİS,
"Yeni Müsavat"

# Müsavat başqanı müavininin istefası-səbəb idarəçilikdir



Elman Fəttah

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah vəzifəsindən istefa verib. E. Fəttah APA-ya açıqlamasında bu barədə yayılan xəbərləri təsdiqləyib. O bildirib ki, istefasına partiyanın idarəçiliyində yaranan fikir ayrılıqları səbəb olub.**

E. Fəttah yalnız vəzifəsindən istefa verdiyini və partiyada fəaliyyətini davam etdirdiyini söyləyib.

**Müsavat Partiyası başqanının müavini Tofiq Yaqublu** Elman Fəttahın vəzifəsindən istefa verməsinə münasibət bildirib. T. Yaqublu E. Fəttahın haqlı olduğunu bildirib: "Çünki partiyada fikir ayrılığı var. Düzdür, Elman Fəttah mənim Milli Şurada olmağımı istəmir. Ancaq bu istefa mənimlə bağlı deyil, onun dediyi fikir ayrılığı ilə əlaqədardır". T. Yaqublu partiyadakı fikir ayrılığının nədən ibarət olduğunu şərh etmək istəməyib.

**Partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı başqan müavini Elman Fəttahın istefasına münasibət bildirib. G. Aslanlı partiyada fikir ayrılığının normal olduğunu deyib:** "Burda fikir ayrılığı ola bilər, çünki demokratik partiyadır. Partiyada qərarlar müzakirə yolu ilə qəbul edilir. Ancaq bununla yanaşı, demək olmaz ki, partiyanın idarə edilməsində istefaya səbəb ola biləcək ciddi fikir ayrılığı var".

G. Aslanlı qeyd edib ki, E. Fəttah istefa ərizəsini təqdim etmədiyindən onun istefa verməsinin səbəbləri barədə məlumatsızdır.

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

# Artur Rəsi-zadənin 2017-ci il "qurtuluşu"nun sirri

## Baş nazirin bütün iddialara rəğmən vəzifədə qalması onun özünə bağlı məsələ deyil, sadəcə, zamanını gözləməyə məcburdur; gözlənilir ki, seçki ilində çox əhəmiyyətli vəzifələr gənc kadrlara həvalə olunacaq

**Dekabrın 13-də Artur Rəsi-zadənin köməkçilərinin sayının azaldılması ilə bağlı qərarı diqqətləri yenidən baş nazirin personasına yönəldib. Dəyişikliyə əsasən, baş nazirin köməkçilərinin sayı 7-dən 3-ə endirilib. Əvəzində baş nazirin birinci müavini Eyyub Yaqubovun köməkçilərinin sayı artırılaraq 2-yə çatdırılıb və 4 baş məsləhətçi ştatı əlavə edilib ki, bu da başa düşüləndir. Sirr deyil ki, Nazirlər Kabinetinin əsas ağırlığı uzun illərdir ki, birinci müavinin üzərinə qoyulub.**



Başa çatmaqda olan 2017-ci ilin hələ əvvəllərindən Artur Rəsi-zadənin istefaya göndəriləcəyi ilə bağlı iddialar olsa da, belə görünür ki, baş nazir 2017-ci ildə özünü qoruya bildi. Rəsi-zadənin istefaya göndəriləcəyi daha çox sentyabr ayında keçirilən konstitusiya dəyişikliyini özündə ehtiva edən referendumun nəticələri bəlli olandan sonra gündəmə gəlmişdi. Məlumdur ki, referendumun əsas nəticəsi ölkədə birinci vitse-prezidentlik institutunun formalaşması ilə bağlı oldu. Bu institutun formalaşması ilə səlahiyyətlərinə görə ölkənin ikinci şəxsi baş nazir deyil, birinci vitse-prezident oldu. Baş nazir postu əvvəlki statusunu itirdiyi üçün Rəsi-Zadənin yola salınacağı gözlənilən idi.

Fevral ayında ölkənin ən iri oliqarx nazirlərindən biri hesab olunan nəqliyyat naziri Ziya Məmmədovun vəzifəsindən çıxarılması və Nəqliyyat Nazirliyinin başqa bir dövlət qurumuna birləşdirilməsi ilə ölkədə yeni struktur islahatlarına start verildi. Bundan sonra Nazirlər Kabinetinin də ləğv ediləcəyi ilə bağlı çoxsaylı iddialar üzə çıxdı, hətta bəzi deputatlar səviyyəsində baş nazir və onun kabinetinə ehtiyac olmadığı fikirləri səsləndi.

Avqust ayında prezident Nazirlər Kabinetinin Aparatında struktur dəyişikliyi edilməsi ilə bağlı sərəncam imzaladı. Sərəncamda bildirilirdi ki, baş nazirin rəhbərlik etdiyi strukturda ştat sayı 200 nəfər olmalıdır. Sentyabr ayında Rəsi-zadənin göstərişi ilə bəzi şöbələr ləğv edildi və ya birləşdirildi. Struktur islahatları nəticəsində 8 şöbə müdiri işdən çıxarıldı.

Rəsi-zadənin özündən hətta yaşca kiçikləri pensiyaya göndərməsi dərhal diqqət çəkdi və ilin sonunadək özünü də vəzifəyə əlvida deyəcəyi iddialarını yenidən çoxaltdı. Rəsi-zadənin istefasına gözləyən media ilin sonunda daha bir sürprizlə qarşılaşdı. Heç kimin gözləmədiyi halda daha bir məmur-oliqarx, elə vəzifədə baş nazir qədər stajı olan vergilər naziri Fazil Məmmədov işdən çıxarıldı.

Baş nazirin 2017-ci ildə "sirli qurtuluşu" təbii ki, onun özünə bağlı məsələ deyil. Baş nazir getməyə çox istəklidir, amma zamanı gözləməyə də məcburdur...

İqtidar 21 ildir baş nazir olan, 82 yaşlı Artur Rəsi-zadənin məhz qocaldığına görə tez-tez hətta yaxın ölkələrin mediasında da gündəmə gəldiyinin fərqindədir. Digər tərəfdən, yeni baş nazirin işlək, enerjili, ölkənin daxili situasiyasına dərindən bələd olan birisinin olmasının vacibliyini iqtidar da bilməmiş deyil.

2013-cü il prezident seçkilərindən ötən 5 il müddətində də baş nazir hər hansı fəallığı, fəaliyyət və proqramı ilə deyil, ancaq istefaya nə zaman göndəriləcəyi ilə bağlı iddialarla gündəmə gəldi.

2018-ci il prezident seçkisi ilidir. Gələn il isə təkcə Rəsi-zadə deyil, bəzi nazirlərin də vəzifədən uzaqlaşdırılacağı ilə bağlı müzakirələr artıq indidən başlayıb. Gözlənilir ki, cəmi bir neçə aydan sonra hakim komanda əsaslı şəkildə dəyişdiriləcək, çox əhəmiyyətli vəzifələrə gənc kadrlar təyin ediləcək. Bunu 2017-ci ildə baş vermiş kadr dəyişikliklərindən də görmək mümkündür. Xaricdə təhsil almış, bir neçə əcnəbi dil bilən, nanotexnologiyaların ən son yeniliklərini mənimsəmiş kadrların önə çəkilməsinin növbəti ildə də daha sürətli davam edəcəyini proqnozlaşdırmaq mümkündür.

Prezidentin iqtidarı gəncləşdirməsini zəruri edən siyasətinin arxasında dayanan daha bir mühüm amil həm də hakimiyyət komandasının yaş həddidir.

**Belə olduğu təqdirdə isə Rəsi-zadənin baş nazir kimi qala bilmək şansı yoxdur.**

❑ **"YM"**



# Böyük Britaniyanın ticarət naziri prezidentin qəbulunda

## İham Əliyev: "BP qlobal enerji layihələrində Azərbaycanın əsas tərəfdaşıdır"

**Azərbaycan prezidenti İlham Əliyev dekabrın 14-də Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Virtualaz.org-un məlumatına görə, görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın bundan sonra da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edilib.

İki ölkə arasında iqtisadi əlaqələrin yaxşı tarixə malik olduğunu və Böyük Britaniyanın Azərbaycanın ən böyük xarici investoru olduğunu vurğulayan prezident İlham Əliyev BP şirkətinin Azərbaycanın qlobal enerji layihələrində əsas tərəfdaşı olmasının önəmini qeyd edib. Eyni zamanda Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlər görüldüyünü deyən dövlət başçısı gələcəkdə qeyri-energetika sahəsində də Böyük Britaniya şirkətlərinin həm investor, həm də podratçı kimi iştirakının genişlənməsində ölkəmizin maraqlı olduğunu bildirib. Dövlət başçısı Baronessa Rona Feyrhedin Azərbaycana səfərinin iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə naziri, iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed Azərbaycanın müstəqillik illəri ərzində əldə etdiyi nailiyyətlərin çox böyük təəssürat yaratdığını deyib. Energetika sahəsində əməkdaşlığa toxunan Baronessa Rona Feyrhed BP-Azərbaycan əlaqələrini çox mühüm tərəfdaşlıq əlaqələri kimi dəyərləndirərək hökumətinin bu sahədə əməkdaşlığın bundan sonra da davam etdirilməsi işinə sadiq qalacağını vurğulayıb. Britaniya hökumətinin Azərbaycanla ikitərəfli münasibətlərə çox böyük önəm verdiyini deyən qonaq Azərbaycanın ölkəsinin mühüm strateji tərəfdaşı olduğunu bir daha qeyd edib.

Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivləri ətrafında məsələlərə toxunularaq "Şahdəniz-2" layihəsinin uğurlu icrasının və "Azəri-Çıraq-Günəşli" müqaviləsinin uzadılmasının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı, həmçinin infrastruktur sahəsində Britaniya şirkətlərinin iştirakı, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, alternativ enerji, kənd təsərrüfatı, turizm, təhsil sahələrində əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İcra başçılarına verilən vaxt bitdi

## İşdən çıxarılan üç nəfərin siyahısına kimlər əlavə olunacaq?

**Prezident İlham Əliyevin bu ilin iyul ayının 12-də Nazirlər Kabinetinin geniş müşavirəsində ölkə iqtisadiyyatına özəl sərmayələrin artırılması ilə bağlı icra başçılarına verdiyi vaxt dekabrın 15-də, yəni bu gün bitir. Yada salaq ki, nazirlərin, Prezident Administrasiya rəhbərliyinin də iştirak etdiyi müşavirədə ölkə iqtisadiyyatına özəl sərmayələrin artırılmasının vacibliyi haqda danışan dövlət başçısı icra başçıları qarşısında konkret müddət qoymuşdu.**



Prezident çıxışında demişdi ki, özəl sərmayənin cəlb edilməsi üçün icra başçılarına konkret vaxt verir. "İlin sonunda - dekabr ayında Prezident Administrasiyası və İqtisadiyyat Nazirliyi mənə məlumat, siyahı verməlidir ki, hansı rayonda nə qədər özəl sərmayə cəlb olunub. Hər bir icra başçısının işinə, o cümlədən bu göstəriciyə görə qiymət veriləcək. Bir daha deyirəm ki, dekabrın 15-də mənə geniş arayış təqdim edilsin və ondan sonra həm yüksək qiymət veriləcək, həm də cəza tədbirləri görüləcək", deyə, prezident xəbərdarlıq etmişdi.

"Yeni Müsavat" bu mövzuda son günlər bir neçə dəfə yazdığından əlavə təfərrüatlara varmırıq. Yalnız onu qeyd edək ki, əyalətlərdə pambıqçılığın, üzümçülüyün, fındıqçılığın və digər kənd təsərrüfatı sahələrinin inkişafına dair xeyli işlər görülsə də, özəl sərmayə ilə bağlı məsələlədə problemlər hələ qalmaqdadır. Bildirilir ki, rayona sərmayə cəlb etmək, yeni iş yerləri açmaq, yerli əhalinin problemlərinə daha həssas və çevik münasibət göstərmək əvəzinə, bəzi rayonlarda yenə ciddi irəliləyiş olmayıb. Bu səbəbdən 10-a yaxın icra başçısının dəyişdiriləcəyi ilə bağlı xəbərlər yayılıb.

Axar.az bitməsinə sayılı günlər qalan 2017-ci ildə hansı icra başçılarının vəzifəsi ilə vidalaşmasını yada salıb. Bu il prezident sərəncamı ilə 3 icra başçısı vəzifəsindən uzaqlaşdırılıb. 1 iyun tarixində prezident sərəncamı ilə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov vəzifəsindən azad edilib. Elə həmin gün Kamal Cəfərov sözügedən rayonunun icra başçısı vəzifəsinə təyin edilib. Şərur rayonundan əvvəl 3 il Sədərək rayonunun icra başçısı vəzifəsini icra edən İ.Məmmədov sonuncu sərəncamdan sonra icra orqanlarından uzaqlaşıb.

Bu il icra başçısı vəzifəsi ilə birdəfəlik vidalaşan digər başçı isə Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin rəhbəri İbrahim Mehdiyev oldu. O, 1 iyul tarixində prezidentin imzaladığı sərəncamla vəzifəsindən azad edilib. 2016-cı ildə "Şöhrət" ordeni ilə təltif olunana keçmiş RİH başçısı 2000-2006-cı illərdə Xətai Rayon İcra Hakimiyyətinin rəhbəri vəzifəsində çalışıb. 2006-cı ildə Xətai RİH rəhbəri vəzifəsindən azad edilsə də, Yasamal RİH-ə başçı gətirilib. Yasamal RİH-nin başçısı vəzifəsi hələ də vakantdır.

İcra başçıları ilə bağlı dekabrın 15-dək olan tarixədək sonuncu sərəncam Quba Rayon İcra Hakimiyyəti ilə əlaqədardır. Belə ki, 2 dekabr tarixində İlham Əliyevin sərəncamı ilə 2015-ci ildə bu vəzifəyə təyin edilmiş Yaşar Məmmədov tutduğu vəzifədən azad edilib. O, bundan öncə Ucar RİH-in başçısı vəzifəsində çalışıb. Y.Məmmədov sonuncu sərəncamla icra orqanlarından birdəfəlik uzaqlaşdırılıb. Elə həmin gün Ziyəddin Əliyev Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

❑ **ORXAN**



# Çılpaq beyinlər

Zamin HACI
zaminhaci@gmail.com

*(Oxucu məktubu)*

**Kamal bəy adlı oxucumun yazdığı bu məktubu poçtumdan tapmışam. Açığı, o qədər gözəl fikirlər yazmışdır ki, azacıq ixtisar eləyərkən də çox əziyyət çəkdim, bilmirdim hansı sözünü saxlayım, hansını pozum. Buyurun, oxuyun:**

“Normal adamlar toy salonuna bir daxil olanda ”sevinir", bir də yüksək desibel altında qulağı batmış halda şadlıq sarayının pilləkənlərindən düşüb çölə, açıqlığa və sakitliyə, “azadlığa” çıxanda. Bu yaxınlarda elə konveyerdən çıxan toyların birində beynimdə səmərələşdirici bir fikir cücərdi. Özü də “duran” yerdə, daha doğrusu oturan yerdə. Çünki mən onun cücərməsi üçün nə ona qulluq etmiş, nə də su tökmüşdüm. Çətin ki, onun üçün patent ala biləcəyim fikir isə ondan ibarətdir ki, təklif edirəm, şadlıq sarayının bir küncündə ayaqyolu qədər ölçüdə sakit bir guşə açılsın, fəaliyyət göstərsin və orada kreslolar, geniş, qəşəng masalar və onların da üstündə cürbəcür mövzularda jurnallar, qəzetlər qoyulsun. Divarlardakı rəflərdə isə hər janrda kitablar düzülsün, aparmamaq şərtilə oxunulmasına şərait yaradılsın. Əlbəttə, bu, “nənəm, nənəm, ay nənəm mənim” tipli mahnılara qulaq asmaqdan daha səmərəli olar. Bir də ki, toy o demək deyil ki, mütləq hoppanıb düşəsən, özünü qeyri-ciddi aparasan. Toy yeri dünyanın xüsusi bir görünməyən qatı deyil ki?! İlk baxışdan deyilən təkliflər gülməli və fantastik görünsə də tam realdır. 3-4 saat sıxıla-sıxıla, bekarçılıqdan “Lazım” oldu-olmadı yeməkdənsə, instinktiv olaraq, nə isə eləmək naminə şirə içməkdənsə, arada böyük ekranda peyk antenası vasitəsilə yayımlanan hansısa bir kanala, məsələn, heyvanlar haqda, təbiət haqda hansısa bir sənədli filmi seyr etmək özündən başqa heç kimə maraqlı olmayan birisinin ürək sözlərini dinləməkdən daha yaxşı olardı. Mahnılar sifariş etməkdənsə, 10-15 dəqiqə hansısa filmin pul verilib göstərilməsini istəmək, bəzilərinin, daha dəqiqi, çalğıçıların xoşuna gəlməyə bilər, ancaq bundan udan xalq olacaq. Mən şəxsən məmnunluqla qulağıma “qulaqcıq” taxıb hansısa yaxşı bir şeyə qulaq asardım və ya qəzetlərdən birini vərəqləyib oxuyardım. Baxmayaraq ki, bununla gülüş obyektinə çevrilmək olar. Ancaq nəyi isə dəyişdirmək üçün adam gərək birinci ilk addımı özü atsın. Bu baxımdan, ümumiyyətlə, toy zəncirini qırmağa güc tapıb, belə toyları boykot eləmək lazımdır. Toya yaxın mövzudan çox da uzaqlaşmadan qeyd etmək lazımdır ki, Azərbaycanda qızlar ata evində ikən cehiz üçün hər cürə şey alıb yığırlar! “Tozsoran, soyuducu, televizor, mikser, ətçəkən, şirəçəkən və s.” cansız şeylər ər evinə getdikdən sonra təzə məkana daşınılır. Əlbəttə ki, özü ilə birlikdə. Ancaq çox az bir qism qız ata evində kamillik yığmağa çalışır. Sanki buna ehtiyac yoxdu. Çünki yaddan çıxsa idi, tez qayıdıb götürərdi, necə ki, mikserin hər bir detalı vacibdən də vacib imiş kimi götürülür. Əsas odur ki, minimum xörək bişirə bilir, yaxşı və zövqlə geyinməyə həvəs göstərir. Sözün açığı, kamillik heç ər, qayınata evində də elə yüksək qiymətləndirilmir. Əsas tələbat xarici görünüşə olduğundan, zahirən gözəl qızlara daha tez elçi gedilir! Amandır, kimsə qabaqlayıb ələ keçirər. Bizim əksər mahnılara, muğamlara diqqətlə fikir verəndə aydın olur ki, xarici görünüş daha çox vəsf, tərənnüm edilir: “Qara gözlər”, “gül çöhrə, qırmızı yanaqlar” və s.

Buna rəğmən bundan belə nəticə çıxartmaq olmaz və bu, əlbəttə o demək deyil ki, bütün o qədər gözəl olmayanlar ucdantutma ağıllı, kamallıdırlar. Hərgah onu da qeyd etmək ədalətli olardı ki, sevən üçün əks tərəf dünyada ən gözəl, ən qəşəngdir, necə ki, ata-ana üçün övlad köstəbəyə oxşasa da yer üzündə ən füsunkar və şirin məxluqdur.

Əlimdə səlahiyyət olsa idi kitabsatanlardan, xüsusilə bədii kitab satanlardan, ümumiyyətlə, vergi tutmazdım. Çünki onlar onsuz da toxumluqdur, azlığına görə “qırmızı” kitaba düşməyə tam iddia edə bilərlər. Bakıda belə vəziyyət ürəkaçan deyil. Rayonlardan danışmağa dəyməz. Şəhərimizdə köhnə kitablar ilə tələbatı ödəyə bilməyən, zamanla ayaqlaşa bilməyən hökumət kitabxanalarını saymasaq, bəlkə də 100000 nəfərə bir kitab dükanı düşür. İlk baxışdan kitab dükanlarının az olması artıq monopoliya deməkdir. Ancaq insanlarımızın elmə, ədəbiyyata marağı az olduğundan, bunun heç bir faydası yoxdur. Əgər məsələn, şəhərdə şalvarsatan 3-4 nəfər olsa idi, onların biznesi çox yaxşı gedərdi. Bu da o deməkdir ki, adamlar şalvarsız, paltarsız gəzə, qala bilmir. Ancaq aydın olur ki, bədənləri çılpaq gəzməsə də, başlarının içi lüt gəzə bilir, bunu ayıb saymırlar.

Yaxşı əməllərdən, yaxşı fikirlərdən doğan hisləri maddiləşdirmək mümkün olsa idi, onlardan bəlkə də yasəmən ətri gələrdi, pis əməllərdən isə dəqiq olaraq üfunət!"

# Qüds sammiti qərarını verdi, bəs bundan sonra nə olacaq?

## Elman Nəsirov: “Azərbaycanın bugünkü mövqeyi həm Amerikada, həm də İsraildə anlaşılan mövqedir”

**Dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının keçirilən fövqəladə toplantısında müsəlman ölkələrinin Qüdslə bağlı qəbul etdikləri qətnamə gündəmi zəbt edib. İƏT-ə üzv dövlətlərin Şərqi Qüdsü Fələstinin işğal altında olan paytaxtı kimi tanıması və beynəlxalq ictimaiyyəti də bunu tanımağa çağırması Qüds məsələsini daha da aktuallaşdırıb, eyni zamanda, bu məsələ ətrafında yeni-yeni müzakirələr açılıb.**




“Bu bəyannamə bizi təsirləndirmədi”.

“Report” TRT-yə istinadən xəbər verir ki, bunu Qərbi Qüdsdə MOSSAD əməkdaşlarının şərəfinə təşkil edilən tədbirdə İsrailin baş naziri Binyamin Netanyahu deyib.

**Hökumət başçısı qeyd edib ki, bu açıqlamalar onları təsirləndirə bilməyib:** “Nəticədə doğru olan qazanacaq. Bir çox ölkə Qüdsü İsrailin paytaxtı olaraq tanıyıb və səfirliklərini bu şəhərə köçürəcəklər. Fələstinlilər radikallıq etməkdənsə bu reallığı qəbul edərək, sülh yolunda fəaliyyət göstərsələr daha yaxşı iş görmüş olarlar”.

Göründüyü kimi, Amerikanın gücünü arxasında tam hiss edən İsrail İslam ölkələrinin qəbul etdiyi qətnaməyə bu cür mövqe sərgiləyir. Siyasi ekspertlər zirvə toplantısının Amerika prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasından sonra yaranan gərginliyin aradan qaldırılmasında mühüm rol oynayacağını düşünürlər. Xüsusilə Amerikanın Təl-Əvivdən səfirliyini bu şəhərə köçürmək qərarından danışa biləcəyi vurğulanır. Buna səbəb olacaq arqument kimi də, xristian dünyasının, xüsusilə ABŞ-ın müsəlman aləmini qarşısına almayacağı önə çəkilir. Bunlar olarsa, Amerika və İsraillə İslam ölkələri arasında qarşıdurmanın yaranacağı istisna edilmir. Şərqi Qüdsün bundan sonrakı taleyi ilə bağlı fikirlər də birmənalı deyil.

Azərbaycanın bu məsələdəki mövqeyi, xüsusən ölkə başçısı İlham Əliyevin İƏT-in zirvə toplantısındakı çıxışı tam dəstəklənməklə yanaşı, rəsmi Bakının digər müsəlman dövlətlərdən fərqli olaraq, Qüds problemində manevr etmək imkanları yüksək dəyərləndirilir. Əsas səbəb kimi də, İsrail və Fələstinin ölkəmizdə səfirliklərinin olmasına baxmayaraq, Azərbaycanın hər iki ölkədə səfirliyinin olmaması göstərilir.

**Deputat, politoloq Elman Nəsirov yaranan gərginliyin olduqca ciddi təhlükələr yarada biləcəyini düşünür:** “Bununla bağlı artıq Ərəb Dövlətləri Liqasının təcili toplantısı keçirilib. Eyni zamanda Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda İslam Əməkdaşlıq Təşkilatının təcili toplantısı keçirildi. Hər iki tədbirin əsas nəticəsi o oldu ki, bu qərarın yanlış olduğu barədə mövqe ortaya qoyuldu. Bu hadisə İsrail-Fələstin arasındakı münaqişəni daha da alovlandıracaq. Yaxın Şərq sözün həqiqi mənasında da barıt çəlləyinə çevrilə bilər. Nəticədə bu region fəlakətli vəziyyətə düşər. Bu baxımdan Şərqi Qüdsün İstanbulda Fələstinin paytaxtı elan olunması tam doğru qərar idi. Bu məsələlərlə bağlı cənab prezident İlham Əliyevin mövqeyini bir daha eşitdik. Azərbaycan hər zaman islam həmrəyliyinə böyük töhfələr verən bir dövlətdir. Məhz cənab prezidentin təşəbbüsü ilə 2017-ci il ölkəmizdə İslam Həmrəyliyi ilə kimi qeyd olunub. Eyni zamanda ölkəmizdə İslam Həmrəyliyi Oyunları da keçirildi. Azərbaycanın paytaxtında Fələstin dövlətinin səfirliyi fəaliyyət göstərir, eyni zamanda İsrailin də. Yəni Azərbaycan bu iki dövlət arasında münaqişənin həllinin beynəlxalq hüquq normalarına söykənməsini istəyir. Qüdsün İsrailin paytaxtı kimi elan olunmasının Azərbaycan birmənalı əleyhindədir. Toplantıda bu mövqeyi cənab prezident bir daha iştirakçıların diqqətinə çatdırdı. Amerika bu qərarı verərkən 1995-ci ildə Konqresin qəbul etdiyi məlum qətnaməsinə istinad edirlər. O zaman hər iki palata belə bir qərar qəbul etmişdi. Amma keçən 22 il ərzində heç bir ABŞ prezidenti bu qərarı icra etmədi. O zaman qətnaməyə bir əlavə də var idi. Həmin əlavədə qeyd olunurdu ki, hər bir ABŞ prezidenti seçildiyi gündən 6 ay müddətində bu qətnaməni dəyərləndirə bilər. İndiyə kimi də bu qanun qüvvəsindədir. Trampın da belə bir addım atmasına əsas səbəblərdən biri ətrafında güclü, xarici siyasətdən başı çıxan komandasının olmamasıdır. Dövlət Departamentinin xeyli




yerləri bu gün də vakantdır. Xüsusilə Yaxın Şərqdəki münasibətlərin tənzimlənməsi prosesinin Tramp tərəfindən kürəkəninə tapşırılması da bu məsələdə şübhəli məqamlardan biridir. Çünki Trampın kürəkəni belə məsələlərdə savadlı, bilgili bir mütəxəssis hesab edilmir. Bundan əlavə, Trampın yanında Yaxın Şərqdəki münasibətlərin tənzimlənməsi üzrə daha üç mütəxəssis var ki, bu şəxslər də hüquqşünas və biznesmen kimi daha çox tanınırlar. Eyni zamanda Trampın şirkətində rəhbər şəxslər kimi tanınıblar. Belə bir şəxslərin qəliz münaqişənin həlli ilə bağlı Trampa verdikləri təklif və tövsiyələrin bu günləri nəticələrini görürük. Düşünürəm ki, bu qərar Amerikaya deyil, Trampa lazım idi, eyni zamanda İsrailə deyil, Netanyahuya lazım idi. Çünki hər iki şəxs oxşar problemlər yaşayırlar, impiçment təhlükələri ilə üz-üzə qalıblar”.

**Politoloq Şərqi Qüdsün taleyinin necə olacağından da söz açdı:** “Hesab edirəm ki, indiki halda münaqişə daha çox uzanacaq. Bunun yeganə çıxış yolu Trampın verdiyi qərardan geri çəkilməsidir. Müsəlman ölkələri Şərqi Qüdsü Fələstinin paytaxtı elan edir, Tramp da Qüdsü İsrailin paytaxtı kimi tanıyır, heç bir tərəf də bir-birini qəbul etmir. Sözün həqiqi mənasında çox ciddi təhlükə ilə dünya üz-üzə qalıb. Yaxın Şərqdəki barıt çəlləyi hər an partlaya bilər. Qarşıdurma Amerika və İsraillə müsəlman dünyası arasında gözlənilir”.

**Deputat Azərbaycanın manevr imkanlarından söz açdı:** “Azərbaycanın imkanları yüksək qiymətləndirilir. İsrail çox yaxşı anlayır ki, Azərbaycanın bu mövqeyi heç bir təsir, təzyiq altında baş vermir, burada İslam Əməkdaşlıq Təşkilatının təsiri görünmür. Bu dövlətimizin müstəqil mövqeyidir ki, bu da yalnız beynəlxalq hüquqa söykənir. Əgər BMT-nin bu münaqişəni ilə bağlı qəbul etdiyi məlum qətnamələrdə Şərqi Qüds İsrailə aid göstərilsəydi, bu gün Azərbaycan buna uyğun mövqe sərgiləyəcəkdi. Amma heç bir sənəddə Qüdsün İsrailin paytaxtı olması göstərilməyib. Yalnız ABŞ Konqresində güclü yəhudi lobbisinin təsiri ilə 1995-ci il noyabrın 8-də bir sənədi Konqresdən keçirə biliblər. Azərbaycanın bugünkü mövqeyi həm Amerikada, həm də İsraildə anlaşılan bir mövqedir. Azərbaycanın İsrail və Amerika ilə strateji tərəfdaşlıq münasibətləri var. Bu baxımdan Azərbaycanın Fələstinin mövqeyini müdafiə etməsi heç bir halda İsrailin əleyhinə deyil. Eyni zamanda Azərbaycanın İsraillə əlaqələrini genişləndirmək xətti Fələstinin əleyhinə deyil. Azərbaycan, əksinə, hər iki tərəflə yaxın münasibətləri baxımından tərəflər arasındakı münaqişənin həllinə töhfə verə bilər. Yaxın tarixdə belə bir nümunəyə rast gəlmişik. Azərbaycan və Qazaxıstan prezidentləri birgə səyləri ilə Rusiya-Türkiyə münasibətlərinin bərpasında mühüm addımlar atdılar. Beynəlxalq aləmdə də ölkəmizin mövqeyi anlaşılır”.

❑ Cavanşir ABBASLI

# Azərbaycan Trampın gizli dəftərində

## Dekabrın 18-də açıqlanacaq dörd əsas maddədən ibarət milli təhlükəsizlik strategiyasında ABŞ-ın dünya ölkələrində təsirinin artırılması var; politoloq: "Azərbaycan ABŞ üçün strateji baxımdan çox əhəmiyyətlidir"

**ABŞ prezidenti Donald Tramp dekabrın 18-də yeni milli təhlükəsizlik strategiyasını açıqlayacaq. Bu barədə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Herbert Makmaster bildirib. Qeyd olunub ki, sənəd dörd əsas maddədən ibarət olacaq: amerikalıların müdafiəsi, ABŞ-ın rifahının gücləndirilməsi, "güc vasitəsilə sülhün qorunması" və Amerikanın təsirinin artırılması.**

"Geosiyasət geri qayıdıb, özü də ikiqat güclə qayıdıb", - müşavir vurğulayıb.

Bu strategiyada həmçinin amerikalılara və onların maraqlarına təhlükələr müəyyən ediləcək. Belə təhlükələr sırasında Rusiya, Şimali Koreya və İranın qeyd ediləcəyi gözlənilir.

Sənəddə qeyd olunan maddələrdən 4-cüsü, yeni Amerikanın təsirinin artırılması məsələsi xüsusi diqqət çəkir. Uzun müddətdir ki, Amerika ekspertləri bildirirlər ki, ABŞ, xüsusilə də Azərbaycana münasibətdə daha təsirli addımlar atmalıdır. Ekspertlər hesab edirlər ki, əks təqdirdə, bu bölgədə Rusiyanın nəzarəti tamamilə güclənə bilər. Hazırkı şəraitdə isə faktiki olaraq Amerikanın radiosu, insan haqları ilə bağlı müxtəlif institutları, təşkilatları Azərbaycandan kənarlaşdırılıb. Müstəqil ekspertlər isə məhz bu məsələni də vurğulayaraq, Azərbaycanda Amerikanın təsirlərinin artırılmalı olduğunu söyləyib, çağırışlar edirdilər.



**"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirib ki, Amerikanın ümumən dünyaya təsiri tamamilə azalıb:** "Trampın yürütdüyü siyasət nəticəsində Amerika artıq az qala dünyanın birinci dövləti hesab edilmir. Üstəlik də Trampın Qüds məsələsinə dair özünü doğrultmayan qərarı müsəlmanlarda anti-amerikan mövqeyinin güclənməsinə gətirib çıxarıb. Təbii olaraq başqa bölgələrdə də ABŞ-ın təsir və nüfuzu azalır. Bu boşluğu isə çox sürətlə Rusiya doldurmaqdadır. Rusiyanın Yaxın Şərqdə hərbi iştirakı əvvəlki illərlə müqayisədə xeyli dərəcədə artıb. Xüsusilə də Rusiya ərəb ölkələri ilə çox intensiv işləyir və onları öz nüfuz dairələrinə çəkə bilir. Amerika da əgər dünyadakı təsir dairəsini genişləndirmək istəyirsə, ilk növbədə özü ədalətli olmalıdır. Məsələn, çətin təsəvvür edirəm ki, Qüdsü İsrailin paytaxtı elan edən Tramp administrasiyası bundan sonra müsəlman dünyasında hansısa təsirini artırmağa müvəffəq olsun. Yaxud da bu, Amerika üçün çox çətin olacaq. Postsovet məkanındakı təsirlərə gəlincə isə bu məsələdə də Amerika Rusiyaya uduzur. Amerika Dağlıq Qarabağ probleminin həllində beynəlxalq hüquq normalarına, BMT-nin qətnamələrinə uyğun mövqe sərgiləmir. Bu da Rusiya üçün həllin mümkün variant kimi ərazi bütövlüyü ilə millətlərin öz müqəddəratını təyin etmək prinsipini ön plana çəkir. Halbuki bir millətin iki dəfə öz müqəddəratını təyin etmək hüququ yoxdur. Üstəlik də Dağlıq Qarabağda olan ermənilər gəlmələrdir, yerli aborigen deyillər. Bu xüsusda xeyli sayda arqument gətirmək olar ki, ABŞ yanlış mövqedədir. Güman etmirəm ki, bu mövqeyini düzəltmədən Amerika Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda hansısa təsirlərini artıra bilsin. Yalnız bölgəyə obyektiv münasibət bildirməklə təsirləri artırmaq olar. Elə bölgələr var ki, orada da Amerika Çinə uduzmağa başlayıb. Çin artıq Asiyanın pələnginə çevrilib və çətin ki, Amerikanın təzyiqlərinə tabe olacaq. Əksinə, Amerikanın Asiya qitəsindəki təsirlərini Rusiya ilə birlikdə azaltmaq üçün maksimum səy göstərirlər. Beləliklə də deyə bilərik ki, yuxarıdakı maddələri özündə birləşdirən qərarı qəbul etməkdə Tramp administrasiyası bir xeyli gecikib. Çünki mövqelərin bir qismi əldən verilib, bir qismini isə başqa dövlətlər ələ keçiriblər. Bu baxımdan qəbul edilən qərarların yerinə yetirilməsi işi çox çətin olacaq".

**Politoloq vurğulayıb ki, Azərbaycan Amerika üçün strateji baxımdan çox əhəmiyyətlidir:** "Məsələn, Əfqanıstanda NATO qoşunları var ki, əsasını Amerika ordusu təşkil edir. Həmin qoşunların bütün təchizatının 80 faizi Azərbaycan ərazisindən daşınır. Azərbaycanın əgər aerodromları, dəniz nəqliyyat vasitələri olmasa Əfqanıstandakı sülhməramlı qüvvələrini ayaqda tutmaq bəlkə də mümkünsüz olardı. Bundan başqa, Azərbaycan karbohidrogen ehtiyatlarının mühüm mərkəzidir. Bu gün Amerikanın əsas müttəfiqi olan Avropa Birliyi ölkələrinin bir çoxu öz yanacaq ehtiyatlarını Azərbaycan nefti hesabına ödəyir. Hazırda Yunanıstan və İtaliyaya Azərbaycan qazı gedib çatıb. Gələn ilin ortalarına qədər isə daha bir neçə ölkəyə Azərbaycan qazı göndəriləcək. Yeni Azərbaycan Avropanın neft və qaz təchizatında çox mühüm rol oynamaqla strateji əhəmiyyət kəsb edir. Üstəlik də Azərbaycanın ərazisindən keçən Bakı-Tiflis-Qars dəmir yolu xətti, qədim İpək yolunun bir növ yeni variantıdır. Bundan başqa da həmin xətt Avrasiya materikini birləşdirən çox ucuz və yaxın yoldur. Azərbaycanın geostrateji əhəmiyyəti bütün Avropa dövlətlərinə, o cümlədən Amerikaya da məlumdur. Bura Ermənistan və ya hansısa geridə qalmış ölkə deyil. Ona görə də ölkəmizin əhəmiyyəti gündən-günə artır və beynəlxalq münasibətlərdə daha dinamik rol oynayırıq. Bu baxımdan da Amerika üçün Azərbaycan əhəmiyyətlidir".

**❑ Əli RAİS, "Yeni Müsavat"**

# Ermənistanın Sürix protokolundan imtinasının pərdəarxası

## Ekspertlər deyir ki, bu sənəd əvvəldən iflasa məhkum idi

**Ermənistan tərəfin 2009-cu ildə Türkiyə ilə imzaladığı Sürix protokollarından imtina edəcəyi ilə bağlı verdiyi açıqlama geniş müzakirələrə səbəb olub. Məlumat üçün bildirək ki, protokolların əsas şərtlərindən biri Ermənistan-Türkiyə sərhədinin açılması idi. Sonradan Türkiyə bu protokolların icrasından Ermənistanın Qarabağdan ordularını çəkməməsi ucbatından imtina etmişdi. Məhz bu səbəbdən vaxtilə bu protokolların imzalanması üçün dəridən-qabıqdan çıxan rəsmi İrəvanın Türkiyədən istədiklərini ala bilmədiyi üçün belə qərar verdiyi bildirilir.**

Rusiya-Türkiyə arasındakı yaxınlığın da burada mühüm rol oyandığı vurğulanır. Bu yaxınlığın Ermənistan tərəfdə həm qıcıq yaratdığı, həm də narazılıq doğurduğu qeyd olunur.



**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli bildirdi ki, bu əsasən daxili auditoriyaya hesablanmış bir addımdır:** "Sərkisyan xalqına göstərmək istəyir ki, Qarabağ məsələsində bir addım da geri çəkilən deyil. Onun özünü belə aparması Qarabağ məsələsində Putinin sona qədər dəstəyini almasından xəbər verir. Lakin düşünmürəm ki, Sərkisyan hər addımını Putinlə razılaşdırır. Qərbdə böyük erməni lobbisi var, onların da Türkiyəyə münasibəti hər kəsə bəllidir. Ermənistan bir tərəfdən erməni lobbisindən digər tərəfdən Rusiyadan asılı ölkədir. Bir də ki, Ermənistan anladı ki, Türkiyə Qarabağ və saxta soyqırım məsələsində bir addım geri çəkilən deyil. Ona görə də özləri bu dondurulmuş duruma son qoymağa qərar verdilər. Əslində də ermənilərin bu addımı beynəlxalq siyasətdə Türkiyəyə üstünlük qazandırır. Çünki danışıqlarda əlaqələrin pozulmasındansa, dondurulmuş vəziyyət daha məqsədəuyğundur. Dondurulmuş məsələlərdə gələcək danışıqlar üçün bir ümid yeri qalır. Və iki pisdən ən pisini dözməyib Ermənistanın etməsi Türkiyənin xeyrinə oldu. Ermənistanın bu qərarı Türkiyəyə şərait yaratdı ki, erməniləri danışıqları pozmaqda, destruktivlikdə ittiham etsinlər".

**Politoloq ermənilərin Türkiyə-Rusiya yaxınlığından narahat olduqlarını da istisna etmir:** "Ermənistan anladı ki, Qarabağdan qoşunları geri çəkməyənə qədər Türkiyə onlarla sərhədlərini açmayacaq. Bu qərar beynəlxalq aləmdə Türkiyə üçün cüzi də olsa üstünlük qazandırdı. Yuxarıda qeyd etdiyim kimi, danışıqları Ermənistan pozdu. Yəni destruktiv rolunda Ermənistan göründü. Türkiyə - Rusiya münasibətləri Ermənistanı ciddi narahat edir. Amma Ermənistan o gücdə deyil ki, Türkiyə - Rusiya münasibətlərinə təsir etsin. Putin erməni maraqlarını deyil, rus maraqlarını müdafiə edir. Rus maraqları da hazırda Türkiyə ilə münasibətlərin yaxınlaşmasını tələb edir. Rusiyanın hansısa dairələri ermənilərə protokollardan rəsmən imtina etməsi tapşırığını verə bilər. Çünki bu, Rusiya maraqlarına cavab verir. Türkiyə - Ermənistan münasibətlərinin düzəlməsi, sərhədlərin açılması bir Qərb proyekti idi və bu proyektin tarixin zibilliyinə atılması tam Rusiyanın maraqlarına uyğundur".

**Politoloq Nəzakət Məmmədova Sürix protokollarının iflasa məhkum olduğunu söylədi:** "Türkiyə və Ermənistan arasında protokolların qüvvəyə minməyəcəyini Ermənistan prezidenti Sərkisyan bu il sentyabr ayında BMT Baş Assambleyasının toplantısındakı çıxışında bildirmişdi. Bu, gözlənilən idi. Çünki tərəflərdən heç biri - nə Türkiyə, nə də Ermənistan bu sazişi bağlamağa hazır deyildilər, bu, məcburi şəkildə hər iki tərəfə imzalatdırılmış bir sənəd idi. Halbuki, nə türklər, nə ermənilər bununla razı deyildilər. Bu iki ölkənin bir-birinə qarşı iddiaları var və onlar öz həllini tapmadan bu protokollar imzalandığı üçün tərəflər öz üzərində təzyiqin azaldığını hiss edən kimi ondan imtina etdilər. Yəni Ermənistan imtina etdi və bu, Türkiyəni də narazı saldı desək, doğru olmaz. Müqavilə Gül prezident olduğu dövrdə ABŞ dövlət katibi Klintonun səyləri ilə imzalanmışdı və onların, eləcə də onların təmsil etdiyi qüvvələrin iradəsinin ifadəsi idi.

Bu gün artıq ABŞ-da Hillari Klinton dövrü bitib. Eləcə də Gül indiki Türkiyə siyasətinə təsir imkanlarından məhrumdur.

Bu protokollar imzalandığı vaxt onun imzalanması belə mübahisəli olmuşdu və 3 saat gecikmişdi.

Türkiyə oraya Qarabağla bağlı müddəa salınmasını, ermənilər isə uydurma soyqırımla bağlı maddənin daxil edilməsini tələb edirdilər və mübahisə yaranmışdı. Belə bir narazılıq zəminində, xarici qüvvələrin təzyiqi və təhriki ilə imzalanan sənədin təbii ki, bu cür sonluqla yekunlaşması labüd idi. Türkiyə bir sıra səbəblərdən, o cümlədən uydurma soyqırımın beynəlxalq səviyyədə tanınması təhdidi ilə üzləşdiyi üçün bu protokolları imzalamağa məcbur olmuşdu. Lakin bu onun Azərbaycanla münasibətinə çox mənfi təsir etdi. Türkiyə Ermənistanı Rusiyanın çəngindən qoparmaq üçün ABŞ və Avropanın bir vasitəsi olmuşdu. Bu gün isə reallıq başqadır. Türkiyə və Ermənistanı barışdırmaq cəhd edən böyük güclərin - ABŞ və Avropanın Türkiyəyə təsir imkanları yox dərəcəsindədir. Türkiyə artıq Rusiyaya qarşı Ermənistanı onun təsirindən çıxartmaq üçün vasitəçi dövlət kimi istifadə olunmur. Ermənistan özü Avropa Birliyi ilə əhatəli və dərinləşdirilmiş münasibətlərə dair saziş imzalayıb".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

# Azərbaycanda ölünü necə "diriləcəklər"- tibb professoru danışır

## Adil Qeybulla: "Orqan köçürülməsi məsələsində diqqət edilməli bir neçə nüans var"

**Bütün dünyada orqan köçürülməsi əməliyyatları həyata keçirilir və qəfil ölüm keçirən insanların orqanları donor gözləyən xəstələrə köçürülür. Əksər ölkələrdə sadə vətəndaşlardan tutmuş cəmiyyətdə müəyyən mövqeyə sahib olan insanlara qədər orqanlarının bağışlanmasını vəsiyyət edənlər var. Xatırladaq ki, Azərbaycanda da millət vəkili Qənirə Paşayeva öz orqanlarının bağışlanmasını vəsiyyət edib.**

Ölkəmizdə hələ ki qəfil ölüm keçirmiş insanların orqanlarının götürülməsi faktı olmasa da, az da olsa, böyrək, qaraciyər kimi orqan nəqli əməliyyatları həyata keçirilir. Orqanlarını bir-birinə verənlər isə daha çox yaxın qohumlardır. Çünki cəmiyyət olaraq heç kim cavan yaşda ölmüş yaxınının yarılmasını və orqanlarının götürülməsini istəmir.

**Bu günlərdə Mərkəzi Neftçilər Xəstəxanasında keçirilən mətbuat konfransında xəstəxananın cərrahiyyə və orqan transplantasiyası bölməsinin müdiri Mircəlal Kazımi orqan transplantasiyası barədə həqiqətəuyğun olmayan məlumatlar yazıldığını bildirərək hazırda əsas məqsədin meyitdən donor köçürmə məsələsi olduğunu deyib:** "Azərbaycanda - Mərkəzi Neftçilər Xəstəxanasında on ilə yaxındır orqan köçürmə əməliyyatları aparılır və bu müddət ərzində bizim xəstələrin 95 faizinin əməliyyatı uğurlu olub. Yeddi xəstəmiz əməliyyatdan sonra valideyn olub. Təkcə bu il 76 xəstəyə böyrək və 9 qaraciyər transplantasiyası həyata keçirilib. Bu sahədə çətinliklərdən biri də qan qrupunun uyğun olmamasıdır. Bu problemin həlli yollarından biri də dünyada nadir əməliyyatlardan sayılan çarpaz orqan transplantasiyasıdır. Bu əməliyyat əsasən II və III qan qrupları olan xəstələrdə mümkündür. Artıq bizim təcrübəmizdə bu, Azərbaycanda ilk dəfə həyata keçirilib".



**M. Kazımi bildirib ki, bu vaxta qədər Gürcüstandan 9, Rusiyadan isə nəfər qaraciyər və böyrək köçürülməsi üçün Mərkəzi Neftçilər Xəstəxanasına müraciət edib:** "Bunun səbəbi bizdə əməliyyatın 40-50 faiz daha ucuz olmasıdır".

Tədbirdə iştirak edən Mərkəzi Neftçilər Xəstəxanası transplant nefroloqu Elnur Fərəcov ölkədə transplantasiya əməliyyatı edilənlərin 22 faizinin uşaqlar olduğunu deyib. O, orqan köçürülən uşaqlardan ən kiçiyinin 5 yaşında olduğunu bildirib. Nefroloqun sözlərinə görə, dializə başlamadan orqan köçürmək daha uğurlu sayılır. E.Fərəcov bildirib ki, orqan transplantasiyası xəstələrin yaşama şansını 8-9 dəfə artırır.

M.Kazımi bundan sonra əsas məqsədin meyitdən donor köçürülməsini həyata keçirmək olduğunu deyib. O əlavə edib ki, hazırda ehtiyacı olan xəstələrə dövlət tərəfindən meyit orqanlarının köçürülməsini nəzərdə tutan konsepsiya hazırlanır.

Maraqlıdır, hansı təlimatlar olmalıdır ki, ölüdən orqanlar alına bilsin?

**Tibb elmləri doktoru, professor Adil Qeybulla orqan köçürülməsi üçün qanun qəbul etməyin hələ yetərli olmadığını dedi:** "İnsan yalnız kliniki ölüm keçirdiyi zaman onun orqanlarını götürmək olar. Orqan köçürülməsi məsələsində diqqət edilməli bir neçə nüans var. Orqan kimdən köçürülə bilər? Orqan beyin ölümü keçirmiş, orqanları hələ salamat olan, özü nəfəs alan, amma həyata qaytarılması mümkün olmayan şəxslərdən köçürülə bilər. Bunu da tibbi komissiya araşdırır və bundan sonra həmin insandan orqan köçürülməsinə icazə verir. Orqan köçürülməsi xəstənin himayədarı, atası, anası, qohumlarının razılığı olmadan həyata keçirilə bilməz. Orqanı köçürülə bilən adamlar adətən cavan adamlar olmalıdır. Avtomobil qəzası və ya üzləşdiyi hansısa qəza nəticəsində aldığı travmadan və ya digər patologiyadan beyin ölümü keçirmiş adam olmalıdır. Ən əsası nəzərə alınmalıdır ki, köçürülən orqan sağlam və salamat olmalıdır. Yəni elə xəstəliklər var ki, o xəstədən orqan köçürmək məsləhət deyil. Sağlam və cavan adamların yarılıb ondan orqan götürülməsinə hansı valideyn icazə verəcək?! Cəmiyyət buna hazırdırmı?! Neftçilər Xəstəxanasında bir-iki epizod olub ki, ata-anadan orqan götürüb köçürüblər. Bu donor haqqında qanunun, orqan nəqlinin bir sistem şəklini alması demək deyil. Əvvəla orqan nəqli konsepsiyası bir sistem olmalıdır. Bu sistem ondan ibarətdir ki, donor bankı yaradılmalıdır və cəmiyyət buna psixoloji hazır olmalıdır. Cəmiyyət daxilən qəbul etməlidir ki, dünyasını dəyişməkdə olan, həyatını itirməkdə olan bir insanın orqanı başqa bir insana həyat verə bilər. Biz bunu bir növ qəbul etməliyik. Yalnız qəbul etdikdən sonra buna hazır ola bilərik. Təbliğat aparmaq, cəmiyyəti buna hazırlamaq lazımdır. Digər tərəfdən də sistem odur ki, tutaq ki, Azərbaycanın bir rayonunda bir orqana ehtiyac varsa, başqa bir rayonda da donor daxili orqan götürülübsə, dərhal növbədə olan adama köçürülür. Dünyanın hər yerində bu cür sistem var".

**A.Qeybulla icbari tibbi sığorta olmadan da bunu həyata keçirməyin real olmadığını dedi:** "İnsanların bunu kütləvi şəkildə həyata keçirmək imkanları məhduddur. Bu gün nə qədər qaraciyər köçürməsinə ehtiyacı olan adam dünyasını dəyişir. Bunların hansı gedib orqan köçürə bilir?! Bu çox bahalı bir əməliyyatdır və hər adamın da cibinə, büdcəsinə uyğun deyil. Buna görə də hesab edirəm ki, biz bəzən "çaya çatmamış çırmalanırıq". Qanunlarımız da bu cürdür, gördüyümüz işlər də çox vaxt bu cür olur. Biz hansısa qərarı qəbul edərkən bu qanunun işlək mexanizmini, infrastrukturunu düşünmürük. Bu da qanunun çox vaxt kağız üzərində qalmasına səbəb olur. Bu, sistem şəklini almalıdır. Bunun üçün də səhiyyə islahatları axıra qədər getməlidir, cəmiyyət buna hazır olmalı, donor haqqında qanun layihəsi olmalıdır, bunun işlək mexanizmi olmalıdır. Tək o qanunu qəbul etmək hələ yetərli deyil".

❑ **Günel MANAFLI**

# ABŞ gözlənilən dollar qərarını verdi- Bakıda sakitlikdir

## Ekspert: "Növbəti mərhələlərdə də dolların bahalaşmasını müşahidə etməyəcəyik, lakin..."

**Məlumat verdiyimiz kimi, ABŞ Federal Ehtiyatlar Sistemi dekabrın 13-dəki iclasında uçot dərəcəsini cari il ərzində 3-cü dəfə olmaqla, 1,25 faizdən 1,50 faizə qaldırmaq barədə qərar qəbul edib.**

Gələn il isə daha 3 dəfə analoji qərarın alınması, uçot dərəcəsinin 2,25 faizədək artırılması planlaşdırılır.

Dünya valyuta birjalarında bu addımdan sonrakı vəziyyət göstərir ki, investorlar FED-in qərarına hazır olublar. Bunu **"Yeni Müsavat"a iqtisadçı-ekspert Rəşad Həsənov** deyir. Onun sözlərinə görə, artıq bu kimi qərarlar valyuta birjaları və investorları qəfil yaxalamır: "Dünya bazarları, investorlar FED-in qərarlarını vaxtında qiymətləndirərək öz mövqelərini ona uyğunlaşdırdılar. Bu, əslində yeni deyil, son bir neçə ildə müşahidə olunan trenddir. İnformasiya təminatının güclənməsi, informasiyaların qiymətləndirmə peşəkarlığının artması nəticəsində uzun müddətdir ki, investorlar faktiki olaraq qərarların qəbul olunmasından əvvəl öz mövqelərini daha düzgün müəyyənləşdirirlər. Bu da sonradan qərarın qəbulunun bazarlarda volatil yaratmasının qarşısını alır, sabitliyi qoruyur. Bu tendensiya FED-in son qərarı ilə bağlı da birjalarda açıq hiss olundu. Faktiki olaraq, uçot dərəcəsinin artırılmasına, gələn ilin əvvəlində aktivlərin həcminin azaldılması tempinin daha da sürətləndiriləcəyi mesajının verilməsinə baxmayaraq, əslində dünya bazarlarında ABŞ dollarının həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrin valyutalarına qarşı mövqeyi zəiflədi. Dolların məzənnəsindəki geriləmə qızılın qiymətində müəyyən bahalaşmaya gətirib çıxartdı. Bütün bunlar onu deməyə əsas verir ki, FED-in qərarı dünyada dolların əhəmiyyətli şəkildə möhkəmlənməsini şərtləndirə bilməyəcək".



Ekspertin sözlərinə görə, iqtisadi parametrlərin açıqlanması, ABŞ-da gözlənilən vergi islahatları, rəsmi qurumların mövqe açıqlamaları kimi hadisələr dolların mövqeyini müvəqqəti olaraq gücləndirə bilər. Lakin bu güclənmə uzunmüddətli olmayacaq: "Nəzərə alsaq ki, ABŞ hökumətinin mövqeyi daha zəif ABŞ dolları siyasəti həyata keçirməklə xarici ticarəti, xüsusilə də ixracı dəstəkləməkdir, bu halda hesab edirəm ki, növbəti mərhələlərdə də dolların bahalaşmasını müşahidə etməyəcəyik. Lakin buna baxmayaraq, bəzi ölkələrin valyutasının ABŞ dolları da daxil olmaqla, dünya valyutalarına qarşı mövqeyini itirəcəyi gözlənilir. Belə valyutalardan biri də Türkiyə lirəsidir. Son həftələrdə müəyyən qədər möhkəmlənsə də, lirənin gələn ilin əvvəlində 8 faizədək ucuzlaşacağı gözlənilir ki, bu da müəyyən qədər Azərbaycanla qarşılıqlı ticarət əlaqələrində hiss oluna bilər".

**Mütəxəssis digər həmkarları kimi, bu fikirdədir ki, FED-in qərarının Azərbaycanın milli valyutasına hansısa təsiri gözlənilən deyil:** "Bu gün Azərbaycan valyuta bazarında FD-in qərarının təsiri hiss olunmur. Bu ilin aprel-mayından etibarən Azərbaycanda hökumət faktiki olaraq, sabit məzənnə siyasəti həyata keçirməyə başlayıb. Məzənnə bazarlarda müəyyənləşmir. Digər tərəfdən, dolların bu gün dünya bazarlarındakı mövqe dinamikası əslində manatın möhkəmlənməsini şərtləndirməlidir. Ölkədəki mövcud iqtisadi şərtlər də bunu diktə edir: tədiyyə balansının, xarici ticarət saldosunun müsbət olması, neftin dünya bazar qiymətinin nisbətən yüksəkliyi, valyuta ehtiyatlarının artması, eyni zamanda dollarlaşmanın yekunlaşması və cüzi də olsa əks proseslə əvəz olunması. Lakin bu faktorlara baxmayaraq, Mərkəzi Bankın həyata keçirdiyi məzənnə siyasəti manatın möhkəmlənməsinin qarşısını alır. Biz 2017-ci il ərzində manatın məzənnəsinə təsir göstərə biləcək daha böyük hadisələrin, faktorların şahidi olmuşuq. Məsələn, apreldən avqustadək ABŞ dolları dünyada öz mövqeyini 11 faizədək itirmişdi. Lakin biz bunun manata hər hansı təsirini görmədik. Yaxud neftin qiyməti 55 dollardan iyun-avqustda 46 dollara qədər ucuzlaşmışdı. Nəzərə alsaq ki, neftin qiymətinin manatın məzənnəsinə təsirləri daha böyükdür, bu halda manatın məzənnəsi ciddi şəkildə azalmalıydı. Amma əvəzində çox cüzi bir azalma gördük. Çünki bizdə məzənnə faktiki olaraq, üzən məzənnə rejimində müəyyənləşmir. Əgər belə olsaydı, indiki faktorların təsiri ilə manatın möhkəmləndiyini görməli idik"...

❑ **DÜNYA**

Yeni Müsavat
N 263 (6877) 15 dekabr 2017

# Avropa Məhkəməsinin köçkünlərlə bağlı qərarına deputatlardan sərt etiraz

**Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatasının "Çıraqov və başqaları Ermənistana qarşı" işi üzə çıxardığı yeni qərar birmənalı qarşılanmayıb. Qərarda Laçın şəhərinin işğalına görə Ermənistanın vurduğu maddi və mənəvi ziyan qarşılığında 6 şikayətçinin hər birinə 5 min avro və ümumi xərclər üçün 28 642 funt-sterlinq ödəniş etməsi göstərilib ki, bu da dəymiş maddi-mənəvi zərərə adekvat hesab olunmur.**

Qeyd edək ki, Ermənistan hökumətinə təzminatın ödənilməsi üçün 3 ay vaxt verilib.

İddia ərizəsi 2005-ci il aprelin 6-da AİHM-ə daxil olsa da, son qərar bu günlərdə verilib. Ancaq bu qədər müddət keçməsinə rəğmən məhkəmənin ədalətsizliyə yol verməsi iddiaçıları da narazı salıb. Onlar bildiriblər ki, hər biri 2 milyon avroluq iddia qaldırdığı halda, AİHM Ermənistanın cüzi cərimələnməsi barədə qərar çıxarıb.

Avropa Məhkəməsinin ədalətsiz münasibətini aprel döyüşləri ilə bağlı da gördük. Belə ki, 2016-cı ilin aprel döyüşləri vaxtı ermənilərin vurduğu ziyanla bağlı Azərbaycandan Avropa İnsan Haqları Məhkəməsinə 700 ərizə göndərilib. Həmin işlər icraata götürülsə də, ortada qərar yoxdur. Amma məhkəmə dörd günlük aprel müharibəsinə görə Ermənistanın Azərbaycana qarşı qaldırdığı 23 iddianı da qəbul edib. İddia ərizəsində həyasızcasına bildirilib ki, 2016-cı ilin 2-5 aprel döyüşləri zamanı Azərbaycan Qarabağdakı hərbçilərin və mülki vətəndaşların insan hüquqlarını pozub. Təsəvvür edin, Avropanın ali qurumu işğalçının qaldırdığı iddianı qəbul edib, Azərbaycana qarşı dava açıb. Sabah paralel qətnamələrin çıxarılması da istisna deyil. Bu, nonsensdir. Bu məntiqlə AİHM İŞİD-in, PKK və ya PYD-çilərin iddiasını da qəbul edə bilər.

Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsindəki daimi nümayəndəsi Çingiz Əsgərov da deyib ki, hər bir şikayətçiyə 5 min avro həm maddi, həm mənəvi ziyana görə kompensasiya müəyyən edilməsi gülüncdür. Üstəlik, Avropa Məhkəməsi "balansı" qoruyub. 2006-cı ildə Azərbaycana qarşı iddia qaldıran Minas Sarqsyan adlı Ermənistan vətəndaşının da iddiası təmin edilib. Azərbaycanın Goranboy rayonunun Gülüstan kəndinə qayıtmaq və öz mülkiyyətindən istifadə etmək barədə iddia qaldıran Sarkisyana Azərbaycana 5 min avro kompensasiya və 30 min avro məhkəmə xərclərini ödəmək tövsiyəsini edib. AİHM-in qərarının iqtisadi, siyasi və hüquqi tərəflərinə ekspertlərimizin rəyini öyrəndik.

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında qərardan narazılığını ifadə etdi:** "Avropa təşkilatları hər zaman belə məsələlərdə ikili standartlardan çıxış edib, indi də eyni siyasəti yürüdür. Əvvəla, 5 min avroluq təzminat nə təzminatdır ki? Bu insanlar işğal nəticəsində ailəsini, ev-eşiyini, torpağını, yurdunu itirib. Bu insanlar üçün 5 min avro faktiki olaraq heç nədir. Ümumiyyətlə, Ermənistanın Azərbaycana ödəməli olduğu təzminatlar milyardlarla ölçülür. Bununla bağlı xüsusi qurum yaradılıb və qiymətləndirmə aparılıb, məlum olub ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycana 800 milyarddan artıq zərər vurulub. Üstəlik, ikili standartların nəticəsidir ki, həm bizimkilərə, həm də ermənilərə 5 min avro kompensasiya verilməsi barədə qərar çıxarılıb. Hansı ki, onlar işğal edən tərəfdir, biz işğala məruz qalan tərəf. Göründüyü kimi, ədalət yoxdur. Mən heç vaxt Avropa Məhkəməsindən ədalət gözləməmişəm. 5 minlik təzminat qərarı insanları yola verməkdir. Hələ Ermənistanın bu təzminatı ödəyib-ödəməyəcəyi məlum deyil, sual altındadır". Bununla belə, V.Əhmədov Avropa Məhkəməsinin qərarının Azərbaycan üçün siyasi əhəmiyyətini də qeyd etdi: "5 min avroluq təzminat qərarı ciddi məbləğ olmasa da, insanlarımızın müraciətinə baxılıb, hüquqları tanınıb. Yəni siyasi cəhətdən əhəmiyyətli qərardır".

**Deputat, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə isə "Yeni**





**Vahid Əhmədov:** "Ermənistanın Azərbaycana ödəməli olduğu təzminatlar milyardlarla ölçülür, 5 min avro nədir ki?"
**Çingiz Qənizadə:** "İnsanlara dəymiş zərərin cəmisi 5 min avro dəyərində qiymətləndirilməsi olduqca gülüncdür"

**Müsavat"a dedi ki, bu məsələyə iki aspektdən yanaşmaq lazımdır:** "İlk qərar 2015-ci ilin 16 iyununda çıxarılmışdı və o qərarda Ermənistan işğalçı kimi göstərilirdi. Amma indi təzminatla bağlı AİHM-in Böyük Palatası tərəfindən qərar qəbul olunub. 12 il müddətində Avropa Məhkəməsi bu məsələni istədiyi şəkildə uzatmağa çalışırdı. Amma istənilən halda, bu, bizim qələbəmizdir. Bundan əvvəlki siyasi qərar Ermənistanın işğalçı kimi tanınması demək idi və siyasi cəhətdən bunun çox böyük əhəmiyyəti var idi. Yəni Avropa Məhkəməsinin qərarında Ermənistanın işğal faktı təsbit olunur və məhkəmə qərarında əksini tapır. Bu, presedentdir və bu qərardan bizim rəsmilərimiz istənilən vaxt istifadə edə bilərlər. Elmar Məmmədyarov da görüşlərin birində bu qərara istinadən fikrini bildirib". **Təzminatın məbləğinə gəldikdə, Ç.Qənizadə məsələyə tənqidi yanaşdı:** "Avropa Məhkəməsinin bu məsələdə münasibəti başadüşülən deyil. Çünki öz ev-eşiklərindən, ata-baba yurdlarından zorla çıxarılmış, özü də işğalçı ölkə tərəfindən çıxarılması təsdiqləndiyi halda, onlara dəymiş zərərin cəmisi 5 min avro dəyərində qiymətləndirilməsi olduqca gülüncdür və başadüşülən deyil. Belə hesab edirəm ki, Avropa Məhkəməsi bu cür qərar qəbul etməklə çox yanlış addım atıb. Yumşaq formada desək, mən bunu iddiaçıların təhqir olunması kimi başa düşürəm. Çünki bu 5 min avro hazırkı dövrdə heç bir şey deyil. Amma bir məsələ var ki, bunu AİHM-in Böyük Palatası qəbul edib və artıq ondan şikayət etmək mümkün deyil. Yəni biz faktla razılaşmalıyıq. Düzdür, hər iki halda qələbə bizim tərəfdədir, amma təzminatın miqdarı ilə bağlı təbii ki, narazılığımız var".

**Hüquqşünas bir məqama da diqqət çəkdi:** "Çox maraqlıdır ki, AİHM-in birinci protokolunun 1-ci, 8-ci və 13-cü maddələri burada əksini tapıb: mülkiyyət, şəxsi toxunulmazlıq və ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı problemlər. Bunlar hamısı bir daha göstərir ki, Ermənistan işğalçıdır. Ata-baba yurdundan zorla çıxarılmış insanlarımızın mülkiyyəti zorla əlindən alınıb, şəxsi toxunulmazlıq hüquqları pozulub və bununla bağlı da ədalətli məhkəmənin keçirilməsi üçün imkanları məhdduddur, çünki torpaqlar işğal altındadır. Sual oluna bilər ki, niyə 1992-ci ilin məsələsinə indi baxıldı? Məhkəmə qərarında da təsbit olunur ki, həmin işğal əraziləri bu gün də Ermənistan tərəfindən effektiv işğal altındadır. Yəni işğal davam edir. Biz AİHM-in yurisdiksiyası altına 2002-ci ildən düşmüşük. Effektli işğal bu gün də davam etdiyinə görə bu məsələ icraata götürülüb və qərar qəbul olunub". **Ç.Qənizadə Ermənistanın bu kompensasiyanı mütləq ödəyəcəyini vurğuladı:** "Azərbaycanda yaşamış erməninin mülkiyyəti ilə bağlı da iddia təmin olunub. Yəni bu qərarın heç bir siyasi tərəfi yoxdur. Amma məhkəmə daha dərinə getmiş olsaydı, aydınlaşdırardı ki, o erməninin evini qoyub getməsinin səbəbkarı Ermənistanın işğal faktıdır və bununla bağlı qərar qəbul etməyə bilərdi".

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

# İraqda kimsəsiz qalan 20 azərbaycanlı uşağın gözü yolda

## Ölkəyə gətirilmələri yubanır; hər biri üçün cəmi 400 dollar lazımdır

**İraqda kimsəsizlər evində qalan 20-yə yaxın azərbaycanlı uşaq hələ də gözü yolda qalıb. Onlar Azərbaycana nə zaman göndəriləcəklərini gözləyirlər. Mətbuatda həmin uşaqlarla bağlı məlumat və videogörüntülər yayıldıqdan sonra dövlət rəsmiləri də məsələyə reaksiya verərək, müvafiq dövlət qurumlarının tez bir zamanda həmin uşaqların Azərbaycana gətirilməsi və yaxınlarına təhvil verilməsi istiqamətində işlər görüldüyünü bəyan etmişdilər. O cümlədən xarici işlər naziri Elmar Məmmədyarov da bildirmişdi ki, İraqda saxlanılan azərbaycanlı qadın və uşaqlarla rəhbərlik etdiyi qurumla bərabər müvafiq rəsmi təşkilatlar da məşğuldur. Lakin məsələnin ictimailəşməsindən bir neçə ay ötməsinə baxmayaraq həmin uşaqlar hələ də İraqda kimsəsizlər evindədir.**

Bu günlərdə millət vəkili Qənirə Paşayeva İraqdakı kimsəsizlər evində olub və 20 uşaqla görüşüb. Millət vəkili görüşlə bağlı təəssüratları ürək ağrısı ilə qeyd edib: "Ömər anasını itirib. Atasından isə xəbərləri belə yoxdur. Terrorla mübarizə aparan İraq dövlət gücləri 5 qardaş-bacını təparaq Bağdaddakı yetimxanaya gətirib və bu barədə səfirliyimizə xəbər verib.




Sumqayıtlı Mehdi Aslanov. 42-ci məhəllədənik deyir. 4 il əvvəl onun da ailəsi ya könüllü, ya da aldadılaraq buradakı silahlı qruplaşmalara qoşulub. Azərbaycandan onları Pərvin adlı birisi çıxarıb. Onların da marşrutu Türkiyə-Suriya-İraq (Təlafər)dir. Valideynlərini itiriblər. İndi dörd uşaq İraq çöllərində yetim qalaraq Bağdaddakı yetimxanaya sığınıblar. Dediklərinə görə, Azərbaycanda nənə-babası var.

Yetim qalmış 4 qardaş-bacının ən böyüyü təxminən 5-6 yaşlarındakı Cəfərdir. Onun da valideynləri digərlərinin taleyini yaşayıb.

Yetimlər evində 3-4 yaşı olan kiçik azərbaycanlı qız uşaqlarının üzünə baxmaq insandan güc istəyirdi. Onların küskün baxışları adamın ürəyini paralayırdı.

Hələ birisi vardı, çox balaca... Ata-anasının kimliyi də məlum deyil. O qədər kiçik ki, özü haqqında məlumat verə bilmir. Ona görə də Azərbaycandakı qohumlarını axtarmaq mümkünsüzdür. Bu məsum balanın adını da yetimxananın gülərüzlü müdirəsi qoyub. Dua adlandırıb onu. Kədərli və acı dolu gözləri var Duanın... Bura çox dəhşətli bir yerdir. Demək olar ki, hər millətdən uşaqlar var. Valideynləri İŞİD terror təşkilatı içərisində İraqda vuruşub və İraq dövlətinin terrorla mübarizəsi zamanı öldürülüblər. İraqda bu təşkilatın nə zülmlər törətdiyini, sadəcə, Təlafər türkmanlarını dinlədiyimiz zaman ürəyimiz parçalandı. Başqalarına acımayan bu insanlar demək öz uşaqlarına da acımayıb və onların belə bir cəhənnəmin içərisində yaşadıb. İndi isə uşaqlar da qalıb kimsəsiz, başsız. İnsan dəhşətə gəlir".

Millət vəkili qeyd edib ki, uşaqların Azərbaycana göndərilməsi üçün bütün sənədləri hazırdır, onların Bakıya göndərilməsi üçün maddi vəsait ayrılan kimi prosesi gerçəkləşdirəcək. Lazım olan vəsait isə uşaqların Azərbaycana gətirilməsi üçün yol pulu və təxminən hər uşaq üçün 400 dollar həcmində cərimədir. Millət vəkilinin bu açıqlaması müəyyən suallar doğurub. Maraqlıdır, Azərbaycan hökuməti öz vətəndaşı olan 20 uşaq üçün 400 dollar ödəmək iqtidarında deyil?

"Uşaqların ölkəyə gətirilməsi İşçi Komissiyasının işindən asılıdır". Bu sözləri isə Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov report.az saytına açıqlamasında bildirib. O bildirib ki, uşaqların sayının 20-dən çox olduğu haqda məlumatlar var. Ona görə də sayın dəqiqləşdirilməsi və hamısının ölkəyə gətirilməsi üçün işlər həyata keçirilir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qurumun birbaşa bu məsələdə səlahiyyəti yoxdur:** "Burada daha birinci səlahiyyəti olan dövlət qurumları var ki, bununla məşğul olurlar. O cümlədən Xarici İşlər Nazirliyi, səfirliklər və saire. Yeni qurumumuz həmin uşaqlar ölkəyə gətirildikdən sonra iş aparacaq".

❑ **Xalidə Gəray**
**Musavat.com**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

# İslam dünyası məscid dağıdan Ermənistanla əlaqələrə yenidən baxacaqmı?

## Azərbaycan prezidentinin Qüds toplantısındakı çıxışından sonra yeni situasiya yarana bilər; **Tofiq Zülfüqarov:** “Prezidentin çıxışı Azərbaycan tərəfdən çağırışdır ki, real prinsipləri maraqlara qurban vermək olmaz”

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının Qüdslə bağlı çağırdığı konfransda, gözlənildiyi kimi, Qarabağ çağırışı da oldu.**

Azərbaycan prezidenti öz çıxışında ABŞ-ı Qüdslə bağlı mövqeyinə yenidən baxmağa çağırmaqla yanaşı, İslam ölkələrinə Qarabağ mesajı verərək onları işğal məsələsində vahid mövqedən çıxış etməyə çağırdı.

Prezidenti İlham Əliyev fürsətdən istifadə edərək, İƏT-ə, onun üzv dövlətlərinə və dünyadakı müsəlman cəmiyyətlərinə Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə təşəkkürünü ifadə edib. Ardınca bildirib ki, Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla, 20 faiz torpaqlarını 2O ildən artıqdır işğal altında saxlayır. “Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpaqlarıdır. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilmişdir. Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir. Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz”-Azərbaycan prezidenti İslam dünyasına növbəti dəfə xəbərdarlıq edib. **Dövlət başçısı deyib ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib:** “Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişdir. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq, münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır”.

Göründüyü kimi, Azərbaycan rəhbərliyi prinsiplərinə sadiq qalaraq, ABŞ və İsraillə yaxın müttəfiqlik əlaqələrinə rəğmən, beynəlxalq hüquqa istinad etdi və Fələstin xalqının yanında dayandı. Hətta bəzi ekspertlər bu qərarı Azərbaycan üçün riskli sayır. Ancaq Bakı öz ərazi bütövlüyünün təmin olunmasında beynəlxalq hüquqa istinad etdiyi kimi, digər ölkələrdən də bunu tələb edir. Lakin mövcud situasiyada ortaya sual çıxır: Azərbaycanın bu mövqeyinin qarşılığında İslam dünyası işğalçı Ermənistanla münasibətlərdə ortaya ədalətli mövqe qoyacaqlarmı? Məsələn, Türkiyə və Pakistanın timsalında biz illərdir bu mövqeyi görürük. Ancaq işğalçının nəfəsliyi rolunda çıxış edən qonşu İran hələ ki Ermənistanın ayaqda qalmasında əsas dayaq rolunu oynayır. Bakının Qüds mövqeyindən sonra Tehran başda olmaqla, digər İslam ölkələrinin də “məscidləri dağıdan” ölkə ilə əlaqələrə yenidən baxması arzuolunan olmaqla yanaşı, ədalətli olardı.



**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov “Yeni Müsavat”a bildirdi ki, İslam həmrəyliyi problematik məsələdir:** “Amma Azərbaycan həmişə çalışıb ki, İslam həmrəyliyi çərçivəsində mövqeyinin, prinsiplərinin üstündə duran İƏT üzvü kimi tanınsın. Azərbaycanın mövqeyi ilk növbədə Azərbaycanın maraqları ilə bağlıdır. Azərbaycan öz siyasətini prinsiplər üzərində qurараq addımlarını atır. Eyni zamanda Azərbaycan hər bir məsələnin beynəlxalq prinsiplər əsasında həllini istəyir”.

**Sabiq nazir Azərbaycanın mövqeyinin Bakı-Təl-Əviv münasibətlərinə təsir edə biləcəyi barədə fikirləri bölüşmədi:** “Bəzən deyirlər İsraillə əlaqələrə ziyan dəyə bilər. Amma Azərbaycan-İsrail əlaqələrinin yaxşı olmasında tarixi, geopolitik əsaslar var. Bu əlaqələr o dərəcədə güclüdür ki, onu heç nə sarsıda bilməz. Trampın addımı ilk növbədə İsrailin özünə dərhal problem yaradır”. **T.Zülfüqarov qeyd etdi ki, Azərbaycan həmişə İsrail üçün etibarlı müttəfiq olaraq qalacaq:** “İsrail də çalışır ki, konfliktin din əsasında yaranmadığını sübut etsin. Odur ki, Azərbaycanla əlaqələr misalı bunlar üçün çox vacibdir. Yəhudilər Azərbaycanda daim təhlükəsiz şəraitdə yaşayıb. Üstəlik, bu əlaqələrin tarixi əsaslarını da unutmamalıyıq”.

**Diplomat qeyd etdi ki, Qarabağla bağlı İƏT ölkələrinə prezidentin çağırışı mühüm məsələdir:** “Bu çağırışla İslam dünyasına siqnal verilir ki, bütün münaqişələr prinsiplər üzərində həll olunmalıdır, həmçinin prinsipiallıq hər yerdə olmalıdır. Bu məsələlərdə Fələstin bəzi liderlərinin vaxtilə Ermənistanı dəstəkləyən mövqeləri də unudulmamalıdır. Prezidentin çıxışı Azərbaycan tərəfdən çağırışdır ki, real prinsipləri maraqlara qurban vermək olmaz”.

# Azərbaycan ABŞ-ın vasitəçiliyindən imtina edə bilər-Qüds nümunəsi Qarabağa təhlükədir

## **Politoloq:** “Biz torpaqlarımızı azad etməyin digər yollarını fikirləşməliyik”

**“Qüds məsələsində ABŞ-ın vasitəçilik missiyası şübhə altına alındı və tərəflərdən biri artıq bununla bağlı konkret fikir bildirdi”.**

**Politoloq Qafar Çaxmaqlı** İran prezidenti Həsən Ruhaninin ABŞ-ın İsrail-Fələstin münaqişəsindəki fəaliyyəti barədə mövqeyini “Yeni Müsavat”a şərh edərkən bunları bildirdi. Qeyd edək ki, Ruhani Qüds müzakirəsi keçirilərkən twitterdəki səhifəsində Vaşingtonun siyasətini tənqid edib. Bildirib ki, ABŞ Yaxın Şərqdə heç vaxt ciddi vasitəçi olmayacaq. “ABŞ-ın Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması barədə qərarı Fələstin tərəfinin hüquqlarına hörmətsizlikdir və Birləşmiş Ştatların Yaxın Şərqdə sülh prosesində heç vaxt ciddi vasitəçi ola bilməyəcəyini sübut edir”-Ruhani qeyd edib.




Məsələnin bizi narahat edən tərəfi odur ki, H.Ruhaninin ciddi vasitəçi saymadığı ABŞ ATƏT-in Minsk Qrupunun həmsədridir və biz illərdir bu ölkədən ədalətli qərar gözləməkdəyik. Belə bir yanaşma o zaman ortaya çıxıb ki, Azərbaycan da həmsədrlərin fəaliyyətindən ciddi şəkildə narazıdır. Xüsusilə də daha çox gözlədiyimiz ABŞ-ın xarici siyasətindəki prioritetləri sırasına Qarabağ məsələsini aid etməməsi faktı var. Hətta 2018-ci ildə həmsədrlərin tərkibinin dəyişdiriləcəyi barədə ehtimallar da səslənir. Xüsusilə də Rusiya- Türkiyə münasibətlərinin yaxşılaşması fonunda ABŞ-ın həmsədrlikdən uzaqlaşdırılması də Ankaranın prosesdə aktiv iştirakına yaşıl işıq yandıra biləcəyi barədə nikbin gözləntilər mövcuddur. Xüsusilə də Minsk Qrupu həmsədrlərinin bu yaxınlarda Ankaraya gedərək Türkiyə XİN-də görüş keçirmələri bu ehtimalları ciddiləşdirir.

Qüds məsələsindən sonra qeyri-ixtiyari belə bir narahatlıq ortaya çıxır ki, günün birində Qarabağla bağlı da bənzər situasiya yarana və ABŞ-ın Qarabağın “müstəqilliyini” tanıması ilə bağlı qərarı ortaya çıxa bilər.

**ABŞ-ın öz etibarını itirməsi barədə fikirlərdən bəhs edən Q.Çaxmaqlı bildirdi ki, bununla bağlı narahatlıqlar əsassız deyil:** “Qüds məsələsi Azərbaycan üçün bir təcrübədir. Onsuz biz də Qarabağ danışıqlarında həmsədr ölkələrin tutduqları mövqedən narazıyıq. Rusiya Ermənistanın strateji ortağıdır, Fransa açıq şəkildə erməniləri müdafiə edir. Hətta mən xatırlayıram, rəhmətlik Heydər Əliyevin vaxtında Fransanın başqa bir Minsk Qrupu üzvü olan Almaniya ilə əvəzlənməsi tələbləri vardı. ABŞ-ın nə dərəcədə bu prosesdə tərəfsizliyini bu illər ərzində görmüşük. Onun işi bu məsələdə Rusiya ilə rəqabət aparmaq olub ki, kim daha çox üstünlük əldə edəcək. Onsuz da bu ölkələrin yekdil olmasa da, burada yaşayan erməni əhaliyə öz müqəddəratını təyin etmə haqqı vermək məqsədi var, buna görə danışıqlar prosesi dalana dirənib. Amerika onsuz da bizim sözümüzü demir və günün birində istədiyini qəbul etdirmək üçün Qüdsdə tutduğu mövqeyə uyğun bir addım ata bilər. Təsadüfi deyil ki, ABŞ-ın bəzi ştatları ”Dağlıq Qarabağ Respublikası" deyilən heç kəsin tanımadığı separatçı qurumu tanıyıb. Bu proses davam etdirilir. Günün birində Amerika dövləti də bunu edə bilər. Erməni lobbisi də bu ölkədə yəhudilər qədər olmasa da təsiredici gücə malikdir". **Politoloq hesab edir ki, Türkiyənin Amerika ilə əlaqələrinin pozulduğu indiki dövrdə Amerikanın Azərbaycana da münasibətinin dəyişəcəyi istisna deyil:** “Mən hər zaman bu fikirdəyəm ki, Minsk Qrupunun həmsədr dövlətləri, içi Amerika qarışıq, Dağlıq Qarabağın Azərbaycanın əlindən alınmasına çalışıblar. Siyasi durum bu ölkələrin vasitəçiliyindən imtina etməyə hələlik imkan vermir. Amma şərait yetişsə, biz bu vasitəçilkdən imtina etməliyik. Qarabağ məsələsinin sülh yolu ilə həllini mümkünsüz edən faktorları sadalasaq uzun söhbət alınar. Biz torpaqlarımızı azad etməyin digər yollarını fikirləşməliyik”.

Belə yanaşmalar var ki, Türkiyə və Azərbaycan da öz növbəsində İslam Əməkdaşlıq Təşkilatının üzv ölkələrinin Ermənistanın işğalçı siyasətinə qarşı belə bir konfrans çağırmalıdır. Bunu newscenter.az-a açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. “İslam ölkələri, başda Səudiyyə Ərəbistanı olmaqla, Azərbaycana dəstək verəcək. Qüdslə bağlı İstanbula gedən İran prezidenti Həsən Ruhani isə Ermənistana qarşı belə bir konfransa qatılmaz. Burada İran Ermənistanla həmrəylik nümayiş etdirər. İran və Səudiyyə Ərəbistanının siyasətinə fikir versək, iki ölkə müsəlman ölkəsidir, İslam liderliyinə iddia edirlər. Səudiyyə Qüds məsələsində İsrailin, İran isə Qarabağ məsələsində Ermənistanın yanındadır. Səudiyyə Ərəbistanı isə Ermənistanın işğalçı siyasətinə qarşı Azərbaycanın yanındadır”-ekspert deyib.

**Q.Çaxmaqlı da öz açıqlamasında bildirdi ki, Qarabağla bağlı İslam ölkələrinin bir araya gəlməsini, Ermənistanın işğalı ilə əlaqədar vahid mövqeyin ortaya qoyulmasını zəruri sayır:** “İndiyə qədər biz müsəlman dövlətlərinin gücündən istifadə etməmişik, yəqin çəkinmişik ki, ona dini don geyindirərlər. Amma əgər bir ölkənin ərazisi işğal olunubsa və bu təcavüz davam edirsə, İslam birliyinin buna biganə qalması anormaldır. İslam ölkələri Ermənistana çox böyük təzyiqlər göstərə bilərlər. Potensial var. İslam Əməkdaşlıq Təşkilatının İstanbul zirvəsi bəzi ölkələri təşvişə saldı, həm də İslam həmrəyliyi üçün imkanlar açdı. O imkanı dəyərləndirməliyik. İƏT-in belə bir konfransının keçirilməsi ideyası gerçəkləşərsə, onun faydalı olacağını düşünürəm. Ümumiyyətlə, biz alternativ variantlar fikirləşməliyik. Minsk Qrupu bu məsələnin həlli yox, uzadılması üçün bir fəaliyyətdir”.

Bizə proseslərin sonrakı gedişatını gözləmək qalır. Hələ ki cəbhədə gərginlik davam edir, 14 dekabrda ordumuzun şəhid verməsi də vəziyyətin danışıqlar yolu ilə həllinin mümkünsüz olduğunu təsdiqləyir. Belə görünür qarşıdakı dönəmdə heç vasitəçiyə də ehtiyac qalmayacaq və son sözü silahlar deyəcək.

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

**ABŞ prezidenti Donald Trampın Qüdsü İsrailin paytaxtı olaraq tanıyan qərarından sonra Fələstində gərginlik günü-gündən artır. Fələstinin HƏMAS təşkilatı ötən cümə gününü "qəzəb günü" elan edib və başlayan etirazlar hələ də davam edir. Aksiyalarda 1 nəfər ölüb, 480 nəfər isə yaralanıb. Onlardan 150-nin odlu silahlarla açılan atəşlə yaralandığı bildirilir. Bu isə toqquşmaların qaçılmaz olduğunu göstərir.**



# İsrailə qarşı "3-cü intifada" elan olundu



## Təl-Əvivdən isə düşmənlərinə "yerlə-yeksan edərik" mesajı göndərildi

Bu həftənin əvvəli isə HƏMAS baş verən etirazların Fələstin ərazisində "3-cü intifada" olduğunu bəyan edib. Livan Hizbullah Hərəkatının lideri Seyid Həsən Nəsrullah da televiziya vasitəsilə fələstinliləri İsrailə qarşı Qüds uğrunda mübarizəyə səsləyib və dəstək verməyə hazır olduğunu bildirib.

Artıq etirazlar başlayıb və günü-gündən genişlənir. Ancaq məsələ ondadır ki, bundan əvvəl də Fələstində "3-cü intifada" çağırışları olub, lakin baş verməyib. Ancaq indi vəziyyət daha dramatikdir, faktiki olaraq fələstinlilərin qarşısında iki seçim qalıb: ya işğalla barışıb, Qüdsün İsrailin paytaxtı olduğunu qəbul etmək, ya da mübarizəyə başlamaq. Çünki Amerikanın Qüdsü İsrail paytaxtı olaraq tanıması bu şəhərin İsrail paytaxtı kimi rəsmiləşməsi prosesinin başlaması anlamına gəlir. Hətta Mahmud Abbas sülh danışıqlarını davam etdirsə belə, Fələstində İsrailə qarşı kütləvi etirazların qarşısını almaq mümkün olmayacaq.

Ancaq bu dəfə intifada əvvəlkilər kimi olmaya bilər. Çünki əgər "Birinci intifada" zamanı 100 israilli mülki və 60 hərbçi öldürülübsə, ikincisində bu rəqəm artaraq 1000 nəfərə çatıb. Yəni hər dəfə etirazların şiddəti daha da artıb. İndi isə fələstinlilər həm silah, həm də döyüş təcrübəsi əldə edib. Üstəlik, Hizbullahın da dəstək verməsi etirazları qanlı savaşa çevirə bilər.

Xatırladaq ki, buna qədər Fələstində iki dəfə intifada baş verib. İntifada ərəbcədən ayaqlanmaq, partlayış mənası verir. Ümumi olaraq Fələstin müqavimətinin bir nümunəsi olaraq kütləvi xalq müqaviməti, etiraz dalğası deməkdir. Yəni bu söz kütləvi itaətsizlik, müqavimət, etiraz anlamındadır.

Fələstində birinci intifada 1987-ci ildə başlayıb və 4 il davam edib. Yalnız 1993-cü ildə Oslo razılaşmasının imzalanması ilə dayandırılıb. Birinci intifada 1987-ci ildə İsrail-Fələstin münaqişəsində gərginliyin artması fonunda baş verib. Hərəkat həmin il dekabrın 7-də Cəbaliyə qaçqın düşərgəsindən başlayıb. Hadisə İsrailə məxsus yük avtomobilinin fələstinli işçiləri daşıyan maşınla toqquşması və nəticədə 4 fələstinlinin ölməsi, 9 nəfərin yaralanmasından sonra alovlanıb. Bu hadisə Qəzza universitetində tələbələrin ayağa qalxmasına, yaralıların olduğu Şəfa xəstəxanası ətrafında ilk etirazlara səbəb olub.

Aksiyalar Qəzzada başlasa da qısa zamanda bütün Fələstinin bölgələrinə yayılıb və çox tezliklə kütləvi itaətsizlik aksiyalarına çevrilib. Fələstinlilər İsrail mallarını boykot edir, divarlara şüarlar yazır, yollarda barrikadalar quraraq İsrail ordusuna müqavimət göstərirlər. Ancaq təbii ki, daşla, ağacla İsrail ordusuna qarşı müqavimət mümkün deyildi. Nəticədə fələstinlilər arasında xeyli insan intifada zamanı öldürülür.

İsrail hökuməti fələstinlilərin etirazlarını dayandırmaq üçün 80 min nəfərlik ordunu səfərbər edib. İntifada zamanı 1087 fələstinli öldürülür, eyni zamanda İsraillə əməkdaşlıq etdiyi üçün 822 fələstinli qətlə yetirilib. İsrail tərəfdən isə 100 mülki vətəndaş və 60 əsgər öldürülüb, 1400 nəfərdən artıq mülki yəhudi, 1700 əsgər isə yaralanıb.

"Birinci intifada" prosesində Fələstində yeni müqavimət hərəkatı - HƏMAS elan olunub. HƏMAS lideri - fələstinli ruhani, gəncliyində müəllim işləmiş Şeyx Əhməd Yasin idi. Əlbəttə, rəsmi çıxışlarda HƏMAS-ın ideya bazasının Misirin "İxvan əl-Muslimin" hərəkatı olduğu (bu həqiqətən də belədir) göstərilirdi. Ancaq eyni zamanda HƏMAS Fələstin ərazisində İsrailsiz İslam dövləti qurmağı siyasi proqram kimi elan edən İran inqilabı lideri Xomeyni ideyalarını dəstəkləyir, İrandan böyük maliyyə və silah yardımı alır.

İkinci və daha şiddətli intifada isə 2000-ci ildə başlayıb və 5 il davam edib. Bu dəfə Fələstin tərəfdən 3500, İsrail tərəfdən isə 1000 nəfərə yaxın insan öldürülüb. Öldürülənlərdən 64 nəfəri xarici ölkə vətəndaşı olub. Hesablamalara görə, öldürülən fələstinlilərin 46 faizi təsadüfi güllələrə tuş gələn, yanlışlıqla öldürülənlər olub. İsrail tərəfdən isə öldürülənlərin 31 faizi təhlükəsizlik qüvvələri və ordu üzvləri, 68 faizi isə mülki insanlar olub. Öldürülən fələstinlilərin 663 nəfəri 17 yaşdan aşağı yeniyetmələr olub.

"İkinci intifada"nı alovlandıran İsrailin sabiq baş naziri, Livanda Səbira və Şətila qətliamının müəllifi Ariel Şaron olur. Həmin il Ariel Şaron 1000-ə yaxın İsrail xüsusi təyinatlısının müşayiəti ilə Qüdsdəki müsəlmanların və yəhudilərin müqəddəs məbədinə gəlir. Burada mediaya açıqlama verən Şaron bu ziyarətin "Bir yəhudi olaraq iudaizmin müqəddəs məkanlarını ziyarət etmə hüququndan istifadə etməsi" olduğunu deyir.

Ancaq müşahidəçilərə görə, Şaronun bu addımı seçkilər öncəsi savaş tərəfdarı israillilərə bir çağırış idi. "Əl-Əqsa" məscidi ətrafında fələstinlilərin aksiyası zamanı polisin kameralar qarşısında 12 yaşlı oğlunu qorumağa çalışan fələstinli ata və oğulun qətlə yetirilməsi növbəti partlayışın baş verməsinə səbəb olur. Beləliklə də «İkinci intifada» və ya başqa adla "əl-Əqsa" intifadası başlayır.

"İkinci intifada" prosesində seçkilərdə müharibə tərəfdarları qələbə qazanır, Ariel Şaron baş nazir seçilib. Bundan sonra İsrail əlavə 20 min hərbçini orduya çağırıb və əməliyyatların miqyası genişlənib. Eyni zamanda ilk dəfə Fələstində intihar hücumları həyata keçirilir və 100-dən çox israilli həyatını itirib. Bu isə İsrailin hücumlarını daha da şiddətləndirir. 2002-ci ildə Təl-Əviv hökuməti artan intihar hücumlarının qarşısını almaq üçün fələstinlilərə qarşı divar (Qoruyucu divar) hörülməsi barədə qərar qəbul edir. Ancaq buna baxmayaraq, intihar hücumları davam edir.

2003-cü ildə İsrail ordusu İordan çayının qərb sahilini işğal edir. 2004-cü ildə A.Şaron Qəzzadan ordunun çəkilməsi planını təsdiq etsə də toqquşmalar davam edir. Həmin ilin martında HƏMAS lideri Əhməd Yasin, bir ay sonra isə onun yerinə keçən Rantisi də İsrail hava qüvvələrinin hücumları nəticəsində öldürülür. Yenə həmin il Fələstin Azadlıq Təşkilatının lideri Yasir Ərəfat isə xəstəlikdən dünyasını dəyişir. Onun yerinə İsraillə danışıqların tərəfdarı olan Mahmud Abbas gəlir. 2005-ci ilin fevralında Mahmud Abbas və Ariel Şaron Misirin Şarm əş-Şeyx kurort şəhərində görüşərək toqquşmaların sona çatdığını bəyan edirlər.

İndi isə növbəti intifada başlaması barədə çağırışlar edilib. Ehtimal ki, bu etirazlar dayanmayacaq və qanlı toqquşmalar davam edəcək. Artıq İsrail hökumət rəsmiləri də narahatdır. İsrail hökuməti rəsmisi deyib ki, Livandan təhlükə olarsa, bu ölkəni "daş dövrünə qaytaracaqlar", yəni yerlə-yeksan edəcəklər. Ancaq baş nazir Netanyahunun fələstinliləri sülh danışıqlarını bərpa etməyə çağırması onu göstərir ki, yaranmış vəziyyət onları da narahat edir. Ancaq yəhudi dövlətinin geri addım atacağı inandırıcı deyil. Bu isə "3-cü intifada"nın daha dəhşətli olacağını göstərir.

❑ **Kənan RÖVŞƏNOĞLU**



## ABŞ vitse-prezidentinin İsrailə səfəri təxirə salındı

**ABŞ-ın vitse-prezidenti Maykl Pens prezident Donald Trampın Qüdsü İsrailin paytaxtı kimi tanıması barədə qərarının ardından Yaxın Şərq ətrafında cərəyan edən gərginlik səbəbindən İsrailə səfərini təxirə salıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Maykl Pensin dekabrın 18-də Knessetdə (İsrail parlamenti) planlaşdırılan çıxışı təxirə salınıb. İsrailin Xarici İşlər Nazirliyindəki mənbənin məlumatına əsasən, onlar ABŞ-ın vitse-prezidentinin ölkəyə dekabrın 20-də səfər edəcəyini gözləyirlər.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp dekabrın 6-da Qüdsün İsrailin paytaxtı kimi tanınması barədə bəyanatla çıxış edib. Ağ Evin başçısı, həmçinin Dövlət Departamentinə Amerika səfirliyinin Təl-Əvivdən Qüdsə köçürülməsinə hazırlıq görməyi tapşırıb.

Regionda vəziyyəti gərginləşdirən bu addım bir çox dünya liderləri və beynəlxalq təşkilatlar tərəfindən etirazla qarşılanıb.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) isə Şərqi Qüdsü Fələstin dövlətinin paytaxtı kimi tanıyıb. Bununla bağlı qərar İƏT-in İstanbulda keçirilən fövqəladə zirvə toplantısında qəbul edilib.

## Myanmada bir ayda 9 min müsəlman öldürülüb

**Myanmada avqustun 25-dən sentyabrın 24-nə kimi 9 min rohinca müsəlmanı qətlə yetirilib. "Qafqazinfo" xəbər verir ki, bu barədə "Sərhədsiz həkimlər" beynəlxalq təşkilatının apardığı araşdırmanın nəticələrində deyilir.**

Araşdırmaya görə, ölümlərin 71,7 faizi zorakılığın nəticəsində baş verib. Onlardan 730-u beş yaşından aşağı uşaqlar olub.

## Ermənistanda terror aktının qarşısı alınıb?

**Ermənistanın Milli Təhlükəsizlik Xidməti əsas məqsədi ölkə ərazisində terror aktlarının hazırlanması və həyata keçirilməsi olan cinayətkar şəbəkənin üstünü açıb. Bu barədə "Ermənistan Xəbərləri" portalı yazıb.**

Keçirilən əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində milliyyətcə erməni olan ABŞ vətəndaşının facebook sosial şəbəkəsində səhifə açdığı və orada "Ədalət döyüşçüləri" qrupu, qrupun strategiyası, təşkilatın strukturu, təhlükəsizlik və məxfilik qaydaları haqqında material dərc etdiyi müəyyənləşdirilib. Eləcə də həmin səhifənin vasitəsilə hüquq-mühafizə orqanlarının əməkdaşları və Ermənistan rəsmilərinə qarşı birbaşa zorakılığa çağırışlar yayılıb.

İlkin məlumatlara görə, saxlanılan şəxs Ermənistanda vəziyyəti qarışdırmaq, əhalinin qorxutmaq, qorxu mühiti formalaşdırmaq, dövlət orqanlarına təsir, hökumət nümayəndələrini qətlə yetirmək və ya onlara ağır bədən xəsarətləru vurmaq, eləcə də bu cinayətləri törədəcək insanları toplamaq məqsədi ilə cinayətkar qruplaşma yaratmağa cəhd edib. O, özü də bu işə təkcə Ermənistanda yaşayanları yox, həm də ondan kənarda yaşayan erməniləri cəlb etməyə çalışıb. Bundan əlavə, saxlanılan şəxs həmçinin məsləhətləri, göstərişləri və maliyyə vəsaitləri ilə əlbir olduğu şəxslərlə birgə Ermənistan ərazisində terror aktları hazırlayıb.

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017

# Səbuhi Rəhimlidən türk astroloqun dəhşətli 2018 proqnozuna reaksiya

## "Aslı Gündər astroloq deyil, kartla fala baxandır"

**Öncə görmələrinin gerçəkləşdiyi deyilən türkiyəli astroloq 2018-ci il haqqında dəhşətli proqnozlar verib. Türkiyənin məşhur astroloqu Aslı Güdərin 2018-ci ildə dünyada baş verəcəklərlə bağlı yaydığı proqnozları diqqətinizə çatdırmaq istərdik. Astroloq gələn il III Dünya müharibəsinin başlamayacağını deyib: "Lakin III Dünya müharibəsindən daha betər olan terror aktlarının şahidi olacağıq. Dövlət qura bilməyən İŞİD-in gizli hücrələri Avropa ölkələrinin paytaxtlarında daha öncə bənzəri olmayan qətliamlar törədəcək. Diqqət edin, terror aktı yox, birbaşa qətliamlar".**

Öncəgörən iddia edir ki, dünyada iqtisadi böhran bir sıra böyük markaları vuracaq: "Başda böyük şirkətlər olmaq üzrə bir sıra məşhur markalar çətinliklərlə üzləşəcək. Xüsusilə böyük bir şirkətin çökməsi hamını heyrətləndirəcək", - deyə o bildirib. Astroloqun proqnozlarında deyilir ki, qlobal istiləşmə ən azı terror aktları qədər təlefata səbəb olacaq: "İstiləşməyə görə qopan buz parçaları cənubdakı sahil şəhərlərində daşqınlar yaradacaq. Bununla yanaşı, gələn il ölmüş bildiyimiz bir çox məşhur şəxsin əslində ölmədiyini, gizləndiyini öyrənəcəyik. Həmçinin bir çox məşhur şəxs intihar edəcək. Müxtəlif cür narkotik vasitələr çıxacaq və narkotik istifadəçilərinin sayı inanılmaz dərəcədə artacaq. Kimliyi, məqsədi bilinməyən terror təşkilatları kimyəvi və bioloji silahlarla insanların sıx gəzdiyi ticarət mərkəzlərinə hücum edəcək".

**A.Güdər iddia edir ki, gələn il dünyanın şərqindəki bir maliyyə paytaxtında "11 sentyabr" kimi terror aktı törədiləcək:** "Bütün dünya bu hadisəni günlərlə müzakirə edəcək".

**Onun fikrincə, yeni bir din və daha öncə heç kimin bilmədiyi yeni bir dil meydana gələcək.**

"Kiber hücumlar artacaq, bəzi böyük paytaxtlar qaranlığa bürünəcək. Hər kəs mümkün olduğu qədər təbii qidalardan istifadə etməlidir. Çünki qidalardan gələn viruslar ciddi epidemiyalara yol açacaq. Ümumilikdə, 2018-ci il tarixə bəşəriyyətin ən böyük xaosunun başlandığı il olaraq düşəcək"-deyə, öncəgörən bildirib.



Qeyd edək ki, A.Gündərin 2017-ci il üçün verdiyi proqnozlara "Londonda terror aktı, İŞİD-in Afrikaya keçidi, Bərzaninin referendumunun baş tutmaması, Trampın müsəlmanlara qarşı düşmənliyinin ABŞ-ın başına bəlalar açacağı" kimi həyata keçmiş hadisələr daxil idi.

Maraqlıdır, Azərbaycan astroloqları türk astroloqun dedikləri barədə nə düşünür?

**Astroloq Səbuhi Rəhimli Aslı Gündərin əslində astroloq yox, kartla fala baxan olduğunu dedi:** "Nədənsə, son illər insanların diqqətini qorxulu, təlaş dolu informasiyalarla çəkməyə meyllər yaranıb. Xatırlayıram ki, "21 dekabr 2012-ci ildə dünya dağılacaq" şayiəsini əsaslı arqumentlə təkzib etsəm də, hətta bu barədə kitab yazsam da insanların böyük əksəriyyəti buna əhəmiyyətsiz yanaşmışdı. Sanki qorxularını azaldacaq şeyləri istəmirdilər. Bildiyiniz kimi, deyilənlər yalan çıxdı. Amma vəziyyət dəyişmədi. Sabah yenə hansısa tarixdə fəlakətlər olacağını desələr, maariflənməmiş bu insanlar yenə də inanacaqlar. Mətbuatdan da bildiyimiz kimi, bu vaxta qədər dəfələrlə Yer astroidlə toqquşacaq kimi xəbərlər dolaşdı. Amma bir real fakt da olmadı. 2017-ci il üçün verdiyim proqnozlardan biri də bu idi ki, İŞİD darmadağın olacaq. Amma bu proqnoz diqqət çəkmədi. Hərçənd yalandan desəydim ki, İŞİD Azərbaycanda terror edəcək və ya Türkiyəyə hücum edəcək, inanın ki, daha böyük maraq göstərərdilər. Bu mənzərədən yararlanan bəziləri də situasiya xətrinə hər ilin sonunda gündəmə gəlmək istəyir. Konkret olaraq türkiyəli astroloqun dediklərinə gəlincə isə əvvəla, bildirim ki, öyrəndiyimə görə, o, astroloq deyil, psixoloq və kartla fala baxan birisidir. Çünki qardaş ölkədə fəaliyyət göstərən əsl astroloqların hamısı ilə ünsiyyətim var. 2018-ci il üçün verdiyi proqnozlara gəlincə isə o informasiyaların əksəriyyətində reallıq ehtimalı var. Adi məntiqlə yanaşsaq, Yaxın Şərqdə məğlub olan İŞİD təbii ki, səyyar fəaliyyət göstərəcək və Avropaya yayıldıqları üçün məhz həmin qitədə terror törədə bilərlər. Dünya müharibəsi təhlükəsi hər zaman olsa da, bu proqnozu bəri başdan təkzib edirəm. Maliyyə böhranının hansısa məşhur şirkətləri sıradan çıxarması proqnozu isə dəqiqlik ifadə etmir. Çünki böhran olanda onsuz da belə hallar olur. Əksinə, 2015-2017-ci illərlə müqayisədə gələn il dünya kifayət qədər yumşaq böhran yaşayacaq. Dünya iqtisadçılarının qənaətlərinə görə, vəziyyətin sabitləşməsi, neftin bahalaşması davam edəcək".



**Astroloq türkiyəli görücünün bir fikrinin də xeyli gülməli olduğunu bildirdi:** "Deyir ki, ölmüş bildiyimiz kiminsə ölmədiyini öyrənəcəyik. Əslində bu, proqnoz deyil, dedi-qodu səviyyəli primitiv bir fikirdir. Bəlkə də yığışıb söhbət edəndə kimsə deyib ki, məsələn, bin Laden ölməyib. Bu da dərhal ictimaiyyətə çatdırılıb, amma nə ad göstərib, nə də ki, fakt. Siyasətdən anlayışı olan hər kəs bilir ki, belə şeylərin üstü açılmır və açılması da mümkün deyil. Adolf Hitler, Mircəfər Bağırov, Cövhər Dudayev, hətta bizim vertolyot hadisəsində olanlardan bəziləri haqqında da zaman-zaman belə fikirlər səsləndirilib Ortada isə fakt yoxdur, olası da deyil. Türkiyəli görücü Dubaya işarə edərək orada "11 sentyabr" kimi terror aktı olacağını deyib. Bu fikirləri də təkzib edirəm. Dubayın dünya gücləri üçün nə olduğunu anlamayanda belə proqnozlar özünə yer tutur. Ən qəribəsi odur ki, bu adamın bir dənə də olsun mütləq proqnozu yoxdur. Əvvəldə də dediyim kimi, bunun da səbəbi bəllidir".

❑ **Günel MANAFLI**

## Kollec tələbəsi ürəyindən bıçaqlanaraq öldürüldü

**Ağdaşda qətl hadisəsi baş verib. Hadisə dekabrın 14-də 10.30 radələrində Ağdaş şəhərindəki Bəkir Nəbiyev küçəsində, mərkəzi poçtun qarşısında qeydə alınıb. Ağdaş Dövlət Humanitar Kollecindən lent.az-a verilən məlumata görə, qətlə yetirilən şəxs kollecin 2-ci kurs tələbəsi Ətraf Nəsibovdur. Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.**




## "Çudo Peçka"nın sahibinin istintaqı başa çatdı

**"Çudo Peçka" və "ÇP Aqro" MMC-lərin təsisçisi Çingiz Cəlilovun cinayət işinin ibtidai istintaqı başa çatıb. Bu barədə lent.az-a onun vəkili Janna Bağırova məlumat verib.**

O bildirib ki, vəkillər cinayət işi ilə tanış olur.

Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumata əsasən, müxtəlif hüquqi və fiziki şəxslərin adından bankdan kredit kimi aldığı külli miqdarda vəsaiti bankın vəzifəli şəxsi ilə birgə qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındıraraq şəxsi ehtiyacları üçün mənimsəyən şirkət rəhbərinin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə müəyyən edilib ki, "Çudo Peçka" və "ÇP Aqro" MMC-lərinin təsisçisi Cəlilov Çingiz Asim oğlu "Bank Standard" QSC Kommersiya Bankının İdarə Heyətinin sədri olmuş Kriman Səlim Eldaroviçlə qabaqcadan razılaşmaqla əlbir olaraq həmin dövrdə banka müxtəlif mənbələrdən, o cümlədən xarici və daxili investorlardan və depozitlərdən daxil olmuş külli miqdarda pul vəsaitləri hesabına 21 milyon 874 min manat məbləğində krediti bankın Müşahidə Şurasının razılığı olmadan dəyəri süni olaraq artıq qiymətləndirilmiş əmlakları girov qoymaqla özünün, yaxın qohumlarının və qohumluq münasibətində olduğu, eləcə də rəhbərlik etdiyi cəmiyyətlərdə işləyən ayrı-ayrı şəxslərin adlarına guya bağ evinin alınması, mənzil təmiri, torpaq alınması və bu kimi digər təyinatlarla rəsmiləşdirilməsinə nail olmuş, daha sonra qeyd olunan kredit müqavilələri əsasında banka guya külli miqdarda kredit borcu olduğu görüntüsünü yaradaraq bir neçə dəfə restrukturizasiya (kreditin və ya onun ödənilməsi şərtlərinin dəyişdirilməsi) etdirməklə mənimsədiyi 13 milyon 962 min manat pul vəsaitini Səlim Krimanla öz aralarında bölüb.

Ç.Cəlilovun qeyd edilən kredit məbləğlərini bankın vəzifəli şəxsləri ilə əlbir olaraq öz qulluq mövqeyindən istifadə etməklə təyinatından yayındırmaqla şəxsi ehtiyaclarına xərcləməsinə şübhələr üçün əsaslar yarandığından ona Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda Dr. Vaiz Səmədov sizə komək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.

Elan

**"AAAF Park"da, Xırdalan şəhərində, 2 otaqlı mənzil. Hazırda yaşayış olan binada, 2/9 mərtəbə, 92 kv.m.**

**Qiyməti 44.000 azn**

**(050) 214 05 65**

YENİ MÜSAVAT
N 263 (6877) 15 dekabr 2017




**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim!**
**Həzrət Rəsuli-Əkrəm (s) buyurmuşdur ki, onun mübarək gəlişinin əsas qayəsi - üstün əxlaqları tamamlamaqdır. Əxlaq - İslamın özülündədir, bünövrəsindədir. Bəşəriyyət əsrlər boyu müəyyən əxlaqi keyfiyyətləri zaman-zaman nəbilərdən (ə) qəbul etmiş və yaşatmışdır. Bəşər övladı müxtəlif müəllimlər, yol göstərənlər görmüş, müxtəlif təlimlərdən bəhrələnmişdir. Və sonuncu Rəsulunu (s) göndərməklə, Mütəal Allah bəşəriyyət üçün yüksək əxlaqi keyfiyyətləri tamamladı, insanlara gözəllik nədir məsələsini tam aydınlaşdırdı.**

# İnsan bu iki xisləti ram etməlidir



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

Dinin əsas hədəfi - insanı digər varlıqlardan ayıran, onu yaranmışların əşrəfi edən əxlaqi xislətlərdir. Və mübarək dinimiz insandan istəyir ki, həqiqi dəyərlərə malik olsun, həyatın bütün məqamlarında əxlaqi-mənəvi kateqoriyaları rəhbər tutsun. Allah Təbarəkə və Təala cəmi inanc əhlinə bu dəyərləri qəbul edib, onları yaşatmağı qismət etsin, inşəallah!

## Həyatın rəngi - əxlaq

Bəşəriyyət böyük maddi-texniki inkişafa nail olmuşdur. Lakin nə qədər çox inkişaf etsə də, onun üçün ən böyük problem olaraq mənəvi keyfiyyətlərin aşınmasının qarşısını almaq, əxlaqi dəyərlərin yaşadılmasını təmin etmək qalır. Çünki bunlarsız həyat yoxdur. Bəşəriyyət artıq anlayıb ki, bunlarsız heç bir perspektivi yoxdur. Əxlaqi dəyərlərə söykənməyən ictima, heç bir nizamı, sistemi qəbul etməz. Nihilizm və abırsızlıq üzərində harasa getmək, nəyəsə yetişmək mümkünsüzdür.

Əql diktə edir ki, insan həyatın ona təqdim etdiyi imkanlardan elə istifadə etməlidir ki, sanki belə fürsət daha əlinə düşməyəcəkdir. Belə olan halda tam effektli nəticə hasil ola bilər, insan özü ilə ciddi surətdə məşğul olub, ruhi-mənəvi yüksəliş əldə edə bilər.

Dinimiz hər gündə gizlənən bərəkətlərlə bağlı çoxsaylı tövsiyələr təqdim etmişdir ki, bunların arasında müvafiq zikrlər, namazlar, təsbihlər xüsusi yer tutur. Lakin bütün bu gözəl əməllər yalnız o zaman əhəmiyyət kəsb edir ki, imanın möhkəm və yenilməz bünövrəsinə əsaslansın. Bu imanın da ən bariz göstəricisi - insanın əxlaqıdır. İnsan namaz qıla, oruc tuta bilər, amma nə qədər ki, islami əxlaq örtüyünə bürünməmişdir, onun həqiqətən iman gətirməsi sual altındadır.

## Ümmət üçün təhlükə haradandır?

Dinimiz inanc əhlini daima içəridən olan təhükə, iman pərdəsi altında gizlənən ünsürlərin məkri barədə xəbərdar etmişdir. Həzrət Əlidən (ə) nəql edilən hədisdə buyrulur: lMən öz ümmətim üçün mömin və müşrikdən qorxmuram, narahat deyiləm. Çünki mömini imanına görə Allah Təala sapmaqdan qoruyar və müşriki, onun işlərinə görə zəlil və xar edər. Lakin mən ümmətim üçün münafiq təhlükəsindən və xətərindən çəkinirəm və narahatam. Çünki o, öz nifaqını ürəyində gizli saxlayır və dində haqdan dəm vurur. O şeyi deyir ki, bəyənirsiniz, (amma) özü o şeyə əməl edər ki, siz onunla müxalifsiniz».

Mübarək Əli (ə) bəlağətilə ümmətə həqiqi təhlükə mənbəyi bəlli edilir. Belə ki, mömindən insanlara xətər yetişməz - Allah Təala onu sapmaqdan, yolunu azmaqdan qoruyar. Mömininin imanı, qəlbində olan Allah xofu onu haqq basmaqdan, harama əl atmaqdan, inşəallah, sığortalayar. Müşriklə, kafirlə də vəziyyət maksimum aydındır. Bunlar açıq-aşkar mənəviyyatla, əxlaqla, İlahi qanunlarla müxalifət edər, Allahın haramını özləri üçün halal edərlər. Bunların açıq küfrü insanlara bəlli olar və Allah Təala onların izzətini əllərindən alar, onları zəlil edər.

Amma gerçək təhlükə zahirdə gözəl sözlər danışan, insanlara özünü imanlı göstərən, əslində isə min oyundan çıxan hoqqabazlardan, münafiqlərdən gəlir. İnsanların çoxu belələrinin daxlində gizlənmiş nifaq "buynuzları"nı sezməkdə çətinlik çəkirlər. Hətta bu azmış kimi, onları ifşa edənləri fitnə salmaqda ittiham da edə bilərlər. İslam tarixi belə nümunələrlə doludur. İstər Həzrət Peyğəmbərdən (ə) bilavasitə sonra, istər Həzrət Əlinin (ə), İmam Həsənin (ə), İmam Hüseynin (ə) vaxtında və sonrakı mərhələlərdə də ümmətə sağalmaz yaralar vuran, bidət və təhrifatlarını dinə salmağa cəhd edən, həqiqi dini unutdurmağa çalışanlar hər zaman həmin bu münafiqlər olmuşlar. Amma həqiqət Günəşi, gec də olsa, əvvəl-axır parlamış, insanların bir qismi həmişə haqqla olmuşdur.

## İnsanı məhv edən iki xislət

Qəlbində nifaq toxumları gəzdirən ünsürü ifşa etməyin ən böyük çətinliyi - məlumatdan bixəbərlik və təhlil etmək qabiliyyətinin zəifliyi ilə bağlıdır. Yenə də İslamın elmlənmək, hər zaman müasir zamanla ayaqlaşmaq barədə tövsiyələri yada üşür. Müsəlmanlar savadlı, dinin tələb etdiyi kimi, zirək və ayıq olsalar, münafiqin hansı işi uğurla nəticələnə bilər?! Baxırsan, birisinin ağzından gecə-gündüz dürr tökülür, amma hansısa zülmə dəstək verir, yaxud ticarətində əyriliyə yol verir, yaxud qohum-qonşunun, yetimin, kasıbın malını yeyir, əmanətə xəyanət edir. Hamıya deyər ki, hicab qadının zinətidir, amma altdan-altdan bu məsələni baltalayar. Birlikdən, vəhdətdən danışar, amma bacardığı yerdə əksini edər, təfriqə salıb, insanların bir araya gəlməsini, müştərək birləşib problemi çözdürmək cəhdlərini əngəlləyər.

**Digər hədisdə Möminlərin Əmiri - İmam Əli (ə) iman əhlini onların daxilində gizlənmiş dağıdıcı hisslər barədə xəbərdar edir:** "Ey insanlar! Mən hər şeydən çox, sizin üçün iki xislətin xətərindən qorxuram və çəkinirəm: nəfsi istəklərin ardınca getməkdən və uzun arzulardan. Nəfsi istəklərin ardınca getmək insanı haqq yoldan çəkindirər və uzun arzular isə (insana) axirəti unutdurar".

Nəfsani istəklərlə haqq bir yerə sığmaz. İnsan ya həvayi-nəfsin ardınca gedər, ya haqqın. Haqqın ardınca getmək əqlin, zəkanın seçimidir, insanın Allahı tanımağından, öz missiyası barədə mərifətindən irəli gələn bir vəziyyətdir. Nəfsi istəklərin ardınca getməkdə isə əql iştirak etmir. İnsan instinktlərin, primitiv xislətlərin qulu olur. Və bir qul olaraq, bu yolda nəyi deyirsən tapdalayır, nə rəzilliyə, alçaqlığa deyirsən, qol qoyur.

## Uzun arzular və axirət

Uzun arzulara gəldikdə, bu, ən ağrılı mövzulardandır. Uzun arzuların ardınca gedən sonda qırıq təknənin yanında qalar. Baxırsan, birisi nəcib insandır, halal zəhmətə qatlaşır, imkanı çatdığından yaxına-uzağa əl tutur. Amma bir balaca vəzifə, mənsəb işartısı gözünə dəyəndə, tamam dəyişir, yeni-yeni lzirvələri fəth etmək» xülyası ilə gözü ayağının altını görmür, sağa-sola xəyanət edir, dostlarını tapdayır. Dayanmır, gözü doymur, deyir "bir filan vəzifəyə gəlim, filan şeyi əldə edim, dayanacağam". Xam xəyaldır! Tarix boyu minlərlə, yüz minlərlə beləleri şeytana nökər olub, cəhənnəmə od aparanların sıralarını özləri ilə doldurmuşlar. Və dünya durduqca da, gözü doymayıb, özünü xülyalarla, uzun-uzadı arzularla yaşadan, real perspektivləri əldə etmək, öz istedad və potensiallarını üzə çıxarıb gözəl nailiyyətlər əldə etmək əvəzinə, qeyri-real planlarla özünü və ətrafdakıları yanlışlığa sürükləyən uğursuzlar da olacaq. Dinimiz bunların acı aqibəti barədə insanları xəbərdar edir.

Uzun arzuların axirətlə nə ümumi cəhəti ola bilər? Uzun arzular torunda olan insan üçün bu dünya - əsas hədəfdir. O, indi, bu dəqiqə gözünü tutmuş nəsnəni əldə etmək üçün hər bir şeyə hazırdır. Bütün vücudunu bu istəyin əsiri edib, gözünü qamaşdıran bu nəyinsə quluna çevrilib. Axirət barədə düşünməyə onun beynində məgər yer qalarmı? Axirət istəyən gərək dünyada vicdanla yaşasın. Allahın nemətlərindən halal ləzzətlər almaq üçün istifadə etməklə yanaşı, öz mənəvi ehtiyaclarını ödəmək, ruhi durumunu inkişaf etdirmək, şəxsiyyətini təkmilləşdirmək barədə düşünsün.

Burada iki, bir-birinə diametral zidd olan yanaşma var. Biri deyir ki, mən insan olaraq vəzifəmi icra etmək üçün bu gün nə etdim, sabah nə etməliyəm? Digəri isə deyir ki, filan şeyi əldə etmək üçün nələri etməli, nələrdən keçməliyəm? Təbii ki, bunların yolu kəsişə bilməz.

## Nəfsi istəklərə tapınmaq

**Əziz İslam dini bəlli edir ki, insan maddiyatı hədəf kimi seçdikdə, artıq bu səviyyədə də qala bilmir. Sonrakı mərhələdə o, nəfsi istəklərə bir ibadət ünvanı, məbud kimi baxır. Bu istəklərə tapınır və istədiklərini təmin etmək üçün dəridən-qabıqdan çıxır. Dinimiz bu tapınmanı, istəklərə bəndəliyi ən acınacaqlı bir vəziyyət kimi qiymətləndirir. Həzrət Rəsuli-Əkrəm (s) buyurur:** "Bu səmanın altında, Allah əvəzinə ibadət edilən məbudlardan heç biri, Allah yanında, nəfsi istəklərdən daha mənfur deyil".

Nəfsani istəklərin ardınca getməyi, Həzrət Rəsulullah (s) Allahdan qeyrisinə tapınmaq, ibadət etmək kimi bir hala aid edir. İnsan öz nəfsi istəklərini özü üçün tanrı qərar verir, bu ltanrı»sına tapınır, hər istədiyini təmin etməyə çalışır. Hər hansı bir vəziyyətdə ki, insan Allahın istədiyini yox, öz istədiyini üstün bilsə və bunu reallaşdırmağa çalışsa, həmin vaxt öz istəklərinin ardınca getmiş olur, onlara tapınmaq halına düçar edir özünü.

**Əmirəlmöminin Həzrət Əli (ə) buyurur:** "Nadan - öz nəfsi istəyinin quludur".

Yəni nəfsin ardınca getmək - cahillik əlamətidir. Ağlı başında olan adam əqlin, rasionallığın ünvanına gedər, primitiv instinktlərin diktə etdiy səmtə yox.

**Dinimiz nəfsani istəklərin ötəriliyini, bu ötəriliyi dərk edən insanın onların ardınca getməsinin mənasızlığını vurğulayır. Həzrət Peyğəmbərdən nəql edirlər:** "Bir saatdan artıq çəkməyən, amma ardınca uzun qəm-qüssə gətirən nə çox (nəfsani istək) var".

Bir şey ki, müvəqqətidir, ardınca da problem gətirir, bunun ardınca getmək nə dərəcədə mənalıdır? İnsan nəyəsə nail olmaq, nəyisə əldə etmək naminə böyük qurbanlar verir, amma bu nəyəsə sahiblik, istifadə hüququ ona çox tez keçən bir ləzzət hissi verir. Lakin bu tez keçən hissə rəğmən, çox uzun çəkən və böyük problemlər gətirən gərginlik, mənəvi iztirablar, əsil sarsıntılar olur bu adama qalan. Həzrət Əli (ə) bəlağəti vasitəsilə dinimiz bu təhlükələr barədə xəbərdar edir: "Kim nəfsani istəyinə tabe olarsa, bu istək onu kor, kar, xar edər və azdırar".

İnsan öz bəsirətini bağlaya bilər, qəlbi kor ola bilər, özünü rəzil duruma salar əgər mənəviyyatı tapdayıb, heçliyə aparan yola qədəm qoysa.

## Nicat tapanlar

Allaha tapınan, İlahi eşq əldə edər. Bu eşq insana bütün bəla və çətinliklərə sinə gərməyə, imtahanlardan dəyanətlə çıxmağa kömək edər. Amma nəfsinə tapınanda belə deyil. O, öz aqibətini zəlalətə düçar edər.

**İmam Cəfər Sadiqdən (ə) nəql edilir:** "Düşmənlərinizdən ehtiyat edib çəkindiyiniz kimi, nəfsi istəklərinizdən də çəkininiz".

Düşmən balaca zəiflikdən istifadə edib, əks-hücuma keçdiyi kimi, nəfsi istəklər də adamın ruhiyyəsində bir balaca boşluq hiss edən kimi, hücum edir, insanın bütün vücudunu özlərinə tabe etdirmək üçün həmlə edirlər.

**İmam Cəfər Sadiqdən (ə) nəql edilən digər hədisdə rahatlığın yolu bəlli edilir.** "Asayiş və rahatlığın yolu nədədir?" sualının cavabında o Həzrət (ə) buyurmuşdur: "Nəfsi istəklərin əleyhinə çıxmaqda".

İnsan nə qədər nəfsi istəklərin ardınca getsə, bir o qədər də rahatlıq və asayişdən məhrum olar. Nəfsi istəklər iradə ilə tərs mütənasibdir. Həzrət Əlidən (ə) nəql edirlər: "Kimin nəfsi istəyi güclənsə, iradəsi zəifləyər".

İmam Əlidən (ə) nəql edilən digər hədisdə dinimiz nəfsin tabeliyində olan ağlın hikmətdən tamamilə məhrum olmasını göstərir: "Şəhvətin zəncirində olan ağıla, hikmədən bəhrələnmək haramdır".

Böyük İslam Peyğəmbərindən (s) isə belə nəql edirlər: "Şəhvətlərlə (nəfsani istəklərlə) dinclik tapan qəlbə, göylərin mələklər aləmində dolanmaq haramdır".

Bir qəlb ki, primitiv xislətlərlə aramlıq tapır, onun yüksəlişlə, mələklər aləmi ilə nə ortaq məxrəci ola bilər?! Bunun aqibəti - ruhunu qidalandırdığı kateqoriyaların əsirliyində qalmaq olar. Bu uğursuz insan mənəvi zirvələrin, mələkut aləminin sonsuz zənginliklərinin ətrini belə duymaqdan özünü məhrum edər.

**İslam dini nəfsani istəklərin güclü olduğunu da insanların nəzərinə çatdırır və bunlara tabe olduqca, əsarətlərindən qurtulmağın çətinləşəcəyinə diqqət çəkir. Və müvafiq olaraq, bunlara qalib gələn insanın yüksək əxlaqi və mənəvi gücə malik olmasını da vurğulayır. Həzrət Peyğəmbərdən (s) nəql edirlər:** "Pəhləvan o deyil ki, camaata qalib gəlir. Pəhləvan o kimsədir ki, öz nəfsinə qalib gəlir".

**Bununla yanaşı, dinimiz təsdiq edir ki, nəfsani istəklərin ardınca getmək - insanın özünə dəyər verməməsinin nəticəsidir. Həzrət Əlidən (ə) nəql edirlər:** "Kim özünə qiymət qoysa, şəhvət və nəfsin istəkləri onun gözündən düşər".

**Araşdırmalar göstərir ki, insanların elmə, dərrakəyə, təhlilə meyli artdıqca, fəsada tərəf getməsi zəifləyir və əksinə, düşüncə kasadlıq, dayazlıq hökm sürən yerdə isə fəsad adi hal olur. İmam Əli (ə) buyurur:** "Kim şəhvət və nəfsin istəyinə qalib gəlsə, ağlı aşkara çıxar".

**Həzrət Peyğəmbərdən (s) bütün iman əhlinə ümid verən və nicatla müjdələyən bir təbərrük hədisdə bildirilir:** "Allah Təala buyurur: lAnd olsun izzət və əzəmətimə! Hansı bəndə ki, Mənim istəyimi öz istəyindən üstün tutar - mələklərimi onu qorumağa göndərər, göyləri və yerləri onun ruzisinin zamini, təminatçısı qərar verərəm. Hər (belə) tacirin ticarətinin ardınca onun fikrində olaram və dünya öz istəyi ilə zəlilliklə ona tərəf üz tutar"".

**Allah Təala cəmi insanları nicat tapanlardan qərar versin, inşəallah!**

**Allahım, ümmətin nifaq və fitnədən amanda qalmasını, iman əhlinin elm və əxlaqla zənginləşməsini, həqiqi dəyərlərin yaşanmasını, yolunu azmışların hidayət olmasını nəsib et!**

**Allahım, uzun arzu və nəfsani istəklərin iman əhlindən uzaq olmasını nəsib et!**

**Allahım, bizləri dünya və axirətdə Peyğəmbər (s) və Əhli-Beyti (ə) ilə məhşur olanlardan, haqq yolunu tanıyanlardan qərar ver!**

**Allahım, işğal altında olan torpaqların, ibadətgahların tezliklə qəsbdən qurtulmasını, 12-ci İmam - Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini inayət et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 263 (6877) 15 dekabr 2017*




## Britaniyalı cərrahlar ürəyi bədənindən xaricdə olan qızı xilas etdi

**Britaniyanın Lester şəhərində uşaq cərrahları ürəyi və mədəsinin bir hissəsi bədənindən kənarda olan balaca bir qızı xilas ediblər. Bu haqda "The Independent" nəşri xəbər verib. Körpədə özünü göstərən patologiya ananın hamiləliyinin 9-cu həftəsində özünü göstərib. Bətndəki döldə ürəyin ektopiyası özünü göstərib. Olduqca nadir görülən bu xəstəlik zamanı ürək döş qəfəsindən kənarda inkişaf edir. Bu xəstəlikdən əziyyət çəkən uşaqların böyük əksəriyyəti 1 yaş müddətində dünyasını dəyişir. Buna baxmayaraq, valideynlər hamiləliyi yarıda kəsməkdən imtina ediblər.**

22 noyabrda anaya qeysəriyyə əməliyyatı edilib. Balaca qız körpənin həyata qaytarılması üçün 50 həkim mübarizə aparıb. Onlar körpəyə süni döş qəfəsi qoyublar və ora ürək yerləşdiriblər. "The Independent"in xəbərinə görə, bu, Böyük Britaniyada keçirilən ilk belə əməliyyatdır.

Qız sağ qalıb. Amma onun sağlamlığı müalicəsinin davamından asılıdır. Buna bənzər cəmi bir fakt məlumdur ki, ürək ektopiyası ilə doğulan bir nəfər 34 il yaşayıb. Eyni diaqnozla doğulan digər xəstələrin ömrü isə ona nisbətən daha qısa olub.

# Uşağı atası daha çox sevirsə...

**Uşaq xoşbəxt ola bilmək üçün ata sevgisini içdən hiss etməlidir. Psixoloqlar müəyyən ediblər ki, sağlam ünsiyyət üçün atalar uşaqlarına vaxt ayırmalıdır. Atalarından davamlı sevgi, maraq görən və sağlam dialoq quran uşaqların özlərinə inamı yüksək olur. Ata sevgisi yüksək olan uşaq dərslərində daha müvəffəqiyyətli olur və yoldaşları ilə daha rahat ünsiyyət qurur. Bundan başqa, liderlik xüsusiyyətləri də daha çox inkişaf edir. Atalar uşaqlarına zaman ayırmalı və danışmalıdırlar. Birlikdə kitab oxumalı, bir hadisə haqqında onun nə düşündüyünü soruşmalıdırlar. Uşaqla söhbət və atanın sevgisinin göstərməsi zəkanın inkişafına müsbət təsir edir.**



Alman pedaqoq Petra Otmann da uşağın inkişafında ana və ata rollarının ayrı-ayrı olduğunu söyləyib. Qız uşaqlarının özünə anasını rol model aldığını, kişi uşaqlarının isə atanı rol model aldığını ifadə edən Otmann bu zaman onların qarşılarına çıxan bir problemi rahat bir şəkildə həll edə biləcəklərini qeyd edib.

# 14 dostu vardı, hər birinə 1 milyon dollar verdi



**Məşhur Hollivud ulduzu Corc Kluni 14 dostuna hər biri 1 milyon dollar olmaqla çek verib. Bu haqda dostlarından birinin ötən həftə verdiyi müsahibədən sonra məlum olub. 56 yaşlı aktyorun keçmiş dostu Rande Gerber deyib ki, Kluni onlara zəng vuraraq, "27 sentyabr 2013-cü ili təqvimdə xüsusi işarələyin, hamınızı axşam yeməyi üçün evimə dəvət edirəm" söyləyib. Axşam yeməyi üçün qonaqlar evə gələndə oturduqları masanın üstündə onlara çatacaq qara bir çanta tapdılar. Çantaların içində isə hər biri 1 milyon dollar dəyərində olan çeklər var idi.**

Dostlarının bu duruma təəccübləndiyini görən aktyor bunu deyib: "Uşaqlar, mənim üçün nə qədər çox şey ifadə etdiyinizi bilməyinizi çox istəyirəm. Los Ancelesə gələndə mənə evinizi açdınız, kreslonuzda yatdım. Sizləri tanıdığım üçün çox şanslıyam. İndiyə qədər sizinlə qurduğum dostluğa bənzər heç bir dostluq yaşamadım, bu səbəbdən də mənim üçün çox vacibsiz və hamınız bir yerdə ikən bu dostluğumuzun nümunəsi olaraq sizə bir hədiyyəm olacaq. İndi sizdən çantaları açmanızı istəyirəm".

Kluninin dostu Gerber deyib ki, "hamısı şoka giriblər". Kluni isə pulları vergisini də ödəyərək, qəbzi çantanın içinə qoymuşdu.




**QOÇ** - Belə bir gündə evdə oturmağa lüzum yoxdur. Əksinə, aktivliyinizi artırmalısınız. Ulduzlar bəyan edir ki, bəxtinizdə dekabr ayının ən uğurlu təqvimlərindən biri durub.

**BUĞA** - Daxili tərəddüdlərinizi dəf etmək üçün mütləq ətrafınızda təcrübəli adamlar olmalıdır. Saat 15-ə qədər uğurlu məqamlar yaşasanız da, sonrakı ərəfədə mübahisələr mümkündür.

**ƏKİZLƏR** - Ümumi sıxıntılarınız olsa da bu, yalnız nahara qədər davam edəcək. Sonrakı müddətdə bəzi planları həyata keçirə biləcəksiniz. Axşama yaxın vacib şəxslərlə görüşəcəyiniz mümkündür.

**XƏRÇƏNG** - İlin sonuna qədər görəcəyiniz işləri indidən götür-qoy edin. Ulduzlar səfərə çıxmağınızı labüd saymır. Amma nahardan sonra xoş təsadüflə rastlaşacaqsınız. Kiminsə əleyhinə danışmayın.

**ŞİR** - Ailə-sevgi münasibətlərində qarşınıza problemlər çıxa bilər. Amma belə anlaşılmazlıqları dəf etmək üçün təmkin göstərməyiniz kifayətdir. Günün ikinci yarısını istirahətə həsr edin.

**QIZ** - Bu təravətli günü qeyri-işgüzar görüşlərə həsr etməyiniz məsləhətdir. Soyuq münasibətdə olduğunuz yaxınlarınızla davranışlarınızı mülayimləşdirməyə çalışın. Uzaq yola çıxmayın.

**TƏRƏZİ** - Bu təqvimi romantik bir günə çevirmək öz əlinizdədir. Çünki əyləncələrə və səfərə də gedə, əməli fəaliyyətlə də məşğul ola bilərsiniz. Qısası, bu gün hər şey özünüzdən asılı olacaq.

**ƏQRƏB** - Özünüzə daha çox etibar edin. Çünki ətrafınızda olanlar iştirakçısı olduğunuz situasiyaları sizin qədər təhlil edə bilmir. Ay bürcünüzdə olduğundan pul sövdələşmələrindən uzaq olun.

**OXATAN** - Maliyyə problemlərinə görə sıxıntı çəkməyin. Ən azı ona görə ki, bu gündən etibarən şəxsi büdcənizdə kifayət qədər artım olacaq. Özünüzə qapılmaqdansa, əzmkarlığınızı artırın.

**OĞLAQ** - O qədər də uğurlu vaxt deyil. Öhdəliklərinizin reallaşması istiqamətində yorulacağınız gözlənilir. Bir sözlə, bu təqvimdə yalnız aktiv fəaliyyətlə məşğul olmalısınız. Qidanıza fikir verin.

**SUTÖKƏN** - Yüksək əhval-ruhiyyədən uzaq olmayın. İş haqqında nə qədər düşünmək olar? Ruhdan düşməyə də lüzum yoxdur. Çünki qarşıda sizi uğurlu məqamlar gözləyir. Uzaq səfərə çıxmayın.

**BALIQLAR** - Ulduzların düzümü bu təqvimin sizə düşəcəyindən, o cümlədən perspektivli görüşlərdə iştirakınızdan xəbər verir. Bu səbəbdən də boş dayanmağa dəyməz. Axşama yaxın sürprizlə qarşılaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Depressiyaya düşməməyin yolu balıq yeməkdir



**Aparılan araşdırmalar tez-tez balıq yeyənlərin depressiyaya düşmədiyini sübut edib. 150 mindən çox insanın iştirak etdiyi 26 müxtəlif araşdırmanın nəticələri balığın depressiyaya düşmək riskini təxminən 17 faiz azaltdığını göstərib. Tədqiqatçılar bunu balığın tərkibindəki yağ turşuları ilə əlaqələndirirlər. Belə ki, balığın ehtiva etdiyi omeqa3 yağ turşuları dopamin və serotonin hormonlarının daha aktiv olmasını təmin edir. Bu da insanın özünü daha xoşbəxt hiss etməsinə və depressiyadan uzaqlaşmasına səbəb olur. Ancaq araşdırmaçılar depressiyaya qarşı hansı balıq növünün daha təsirli olduğunu müəyyənləşdirə bilməyiblər. Tədqiqatlar davam edir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100